Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

27
AVQUST
2019-cu il

№ 149 (4047)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANIN DAHA BİR ANTİ-RUSİYA GEDİŞİNİN ÜSTÜ AÇILDI - RUSİYA ŞİRKƏTİ PATRON ZAVODU TİKİNTİSİNƏ BURAXILMADI

■ səh. 8 ■

Qarabağ münaqişəsinin həlli üçün əlverişli məqam yetişir - Ermənistanın Rusiya və ABŞ siyasətində iflas əlamətləri güclənir...

■ səh. 9 ■

Rusiya məsələsi böyük 7-ləri parçaladı... Makron, Merkel, Conson Trampa qarşı...

■ səh. 8 ■

Amulsar problemi
Paşinyanın axırına çıxır...

■ səh. 7 ■

Qeyri-ənənəvi oriyentasiya üzrə "ixtisaslaşmış" ilk qadınlar da ermənilərdən olub

■ səh. 11 ■

Bankların kredit sahəsində yaratdığı böyük problem...

■ səh. 10 ■

Yazıçılar Birliyində sədr məsələsi hələ çox "su aparana" oxşayır - Elçin Əfəndiyevin də imkanları dəyərləndirilir

■ səh. 13 ■

Bakıda oğlan tələbələr üçün kirayə mənzil probleminin özəllikləri...

■ səh. 14 ■

Qəbiristanlıqların elektron bazası yaradılır - hər kəs internet vasitəsilə öz yaxınının məzarı barədə məlumat ala biləcək...

■ səh. 15 ■



■ səh. 4 ■

## Beynəlxalq kitabxanaların Azərbaycanda yazılmış bəzi Qarabağ kitablarından imtina arqumenti «topa tutuldu»...



Azərbaycanın qonşularına «Abxaziya operativliyi» jesti... Qondarma «DQR» operativliyi niyə görünmür...

■ səh. 3 ■

Berlində məşhur Tələt Paşanı yüz il əvvəl güllələmiş erməni terrorçuya Şirakda heykəl qoyuldu...

■ səh. 6 ■



Olan-qalan ətrafını Əli Kərimlinin yanında saxlayan maraqlı motiv açılır...

■ səh. 4 ■

■ səh. 2 ■

Vladimir Putin Birinci vitse-prezident Mehriban Əliyevanı "Rusiyanın böyük dostu" adlandırdı



■ səh. 4 ■

İranda milyonlarla azərbaycanlının ana dilində təhsil arzusu reallaşdı(?)



■ səh. 14 ■

Azərbaycan Rusiya ilə birgə turizmin inkişafında yeni mərhələ açır...



■ səh. 12 ■

Birgə Azərbaycan-Çin istehsalı olan kombinlərin bazarı açılır...



■ səh. 12 ■

Azərbaycanda gön-dəri sənayesi ölü nöqtədən niyə hərəkətə gələ bilmir...



# Azərbaycan Prezidenti İlham Əliyev Allahşükür Paşazadəni doğum günü münasibətilə təbrik edib

**Prezident İlham Əliyev Şeyxülislam Allahşükür Paşazadəyə doğum günü münasibətilə təbrik ünvanlayıb.**

Təbrikdə deyilir: "Hörmətli Şeyx həzrətləri,

Sizi anadan olmağınızın 70, şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı Siz həm dini rəhbər, həm də ictimai xadim kimi həmişə yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmisiniz. Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyimizin dünya ictimaiyyətinə çatdırılması sahəsində səmərəli xidmətlər göstərmisiniz.

Siz bütün həyatınız boyu cəmiyyətdə yüksək əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olması yolunda əzmlə çalışmış, xalqımızın mənəvi sərvətlərinin qorunub saxlanması istiqamətində uğurlu fəaliyyət göstərmisiniz. Şeyxülislamlıq fəaliyyətiniz dövründə bir sıra illərə imza atmısınız. Xüsusilə müqəddəs kitabımız Qurani-Kərimin tərcüməsinin təşkil olunması və nəşr edilməsi, Aşura mərasimləri zamanı qanvermə aksiyalarının keçirilməsi, ölkəmizdə vəhdət namazı ənənəsinin dirçəldilməsi məhz Sizin adınızla bağlıdır. Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin formalaşmasına verdiyiniz töhfələr də danılmazdır.

Sizin fəaliyyətinizdə təkcə Azərbaycanın deyil, həm də dini lideri olduğunuz bütün Qafqaz müsəlmanlarının problem və qayğılarının beynəlxalq ictimaiyyətə çatdırılması mühüm yer tutur. Siz daim müsəlman həmrəyliyi prinsiplərindən çıxış edərək İslam dünyasında törədilən qanlı hadisələrə öz etirazınızı bildirmiş, müqəddəs ziyarətgahların, qədim tarixi abidələrin mühafizə olunması üçün beynəlxalq təşkilatlar



və böyük dövlətlər qarşısında məsələ qaldırmış, dünyada sülhə və əmin-amanlığa nail olunması istiqamətində ardıcıl fəaliyyət göstərmisiniz.

Müxtəlif konfessiyaların liderləri arasında böyük nüfuza malik şəxs kimi Siz bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunur, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun dərinləşməsinə sanballı töhfələr verirsiniz.

Hörmətli Şeyx həzrətləri,

Bu əlamətdar gündə Sizə uzun ömür, möhkəm cansağlığı, nəcib və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram".

## Dmitri Medvedev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı təbrik edib

**Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevdən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu gəlib.**

Təbrikdə deyilir: "Hörmətli Mehriban Arif qızı. Ad gününüz münasibətilə Sizə Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Dost Azərbaycanın qarşısında duran irimiqyaslı sosial-iqtisadi vəzifələrin həllində Sizin mühüm rolunuzu xüsusi qeyd etmək istəyirəm. BMT-nin və UNESKO-nun xətti ilə böyük beynəlxalq mədəni və humanitar təşəbbüslərin həyata keçirilməsində Sizin fəal iştirakınız hörmət hissi doğurur.

Rusiya Federasiyasının yüksək dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif edilməyiniz Sizin Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə verdiyiniz şəxsi töhfənizin təsdiqidir. Əminəm ki, çoxplanlı əməkdaşlığın gələcək inkişafı, bundan sonra da müxtəlif sahələrdə perspektivli birgə layihələrin həyata keçirilməsi Rusiya və Azərbaycanın maraqlarına tamamilə cavab verir.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi qəlbdən cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar arzulayıram".

# Vladimir Putin Birinci vitse-prezident Mehriban Əliyevanı "Rusiyanın böyük dostu" adlandırdı

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu gəlib.**

Təbrikdə deyilir: "Hörmətli Mehriban Arif qızı. Ad gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz yüksək dövlət vəzifələrində çoxillik fəaliyyətinizlə həmvətənləriniz arasında layiq olduğunuz hörmət və böyük beynəlxalq nüfuz qazanmısınız.

Sizi Rusiyanın böyük dostu, dövlətlərimiz arasında



strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinin prinsipial tərəfdarı kimi tanıyırıq. Əminəm ki, bu münasibətlər Rusiya və Azərbaycan xalqlarının mənafeyi naminə, regional sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi maraqlarına uyğun olaraq bundan sonra da məhsuldar şəkildə inkişaf edəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram. Ailənizə səmimi salamımı çatdırmağı xahiş edirəm".

# Vilayət Eyvazov Rusiyanın Polis akademiyalarında oxumağa göndəriləcək kursantlarla və valideynlərlə ayrıca görüş keçirdi...

**Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatına görə, avqustun 26-da Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Polis Akademiyalarında təhsil almaq üçün ezam ediləcək kursantları və onların valideynlərini qəbul edib.**

Qarşıdakı 5 il ərzində Azərbaycan Polisini Rusiyada təmsil edəcək gəncləri, eləcə də onların valideynlərini təbrik edən nazir son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasətinin həyata keçirilməsində də böyük nailiyyətlərin qazanıldığını, dövlət başçısının çıxış və nitqlərində Azərbaycanın parlaq gələcəyinin məhz yüksək intellektə, müasir dünyagörüşə malik, bacarıqlı, dövlətçiliyə sadiq vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını bildirib. Ölkə rəhbərliyinin gənclərə hər zaman böyük diqqət və qayğı göstərdiyini xatırladan nazir yüksək mənəviyyatlı, işgüzar və istedadlı gənclərin ölkəmizin ictimai-siyasi həyatında daha geniş şəkildə təmsil olunmaları, onların dövlət idarəçiliyində xidmətdə irəli çəkilmələri üçün bütün zəruri addımların atıldığını diqqətə çatdırıb.

Sonra DİN-in Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov məlumat verib ki, iki ölkənin Daxili İşlər Nazirlikləri arasındakı razılaşmaya əsasən, bu il Azərbaycan DİN-ə Volqoqrad və Nijeqorodsk şəhərlərindəki Polis akademiyalarında 9 yer ayrılıbr. Həmin yerlərə qəbul üçün elan edilmiş müsabiqəyə 24 namizəd qatılıbr. Nazirliyin müvafiq komissiyası tərəfindən müsabiqə tam şəffaflıq şəraitində keçirilərək namizədlərin Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində topladığı balları, rus dilində yazı qabiliyyəti və şifahi nitq bacarıqları, eləcə də fiziki hazırlığı əsas götürülüb, yekun olaraq ən layiqli 9 abituriyent seçilib.



Nazir, general-polkovnik Vilayət Eyvazov həyatlarında ən əlamətdar günlərdən biri - kursant adına layiq görülmələri münasibətilə onları təbrik edib, çətin və şərəfli xidmətlərində, təhsildə uğurlar arzulayıb. O, gənc əməkdaşlara Vətənimizin, eləcə də Azərbaycan Polisinin adını daim uca tutmağı, eyni zamanda, bilik və təcrübələrini, peşəkar və fiziki hazırlıq səviyyələrini artırmalarını, daim öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini tövsiyə edib.

**Nazir əmin olduğunu bildirib ki, Rusiyanın Polis Akademiyalarına göndərilən gənclərimiz orada mükəmməl təhsil alaraq müasir texnologiyalarla işləmək bacarığına yiyələnəcək, Vətənə qayıdıb cinayətkarlıqla mübarizədə, ictimai asayişin təmin olunmasında, vətəndaşlarımızın qanunla qorunan hüquq və mənafelərinin keşiyində duracaqlar.**

# Azərbaycanın beynəlxalq statusunun möhkəmləndirilməsində Mehriban Əliyeva faktoru...

**Hər bir müstəqil dövlət xarici siyasətində milli maraqlarını ön planda tutur. Azərbaycan da xarici siyasətində milli maraqlara xüsusi önəm verir. Ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək başlıca məsələlərdən biridir.**

***Mübariz Əhmədoğlu:** "Beynəlxalq müstəvidə Azərbaycanın təbliğində, mövqelərinin möhkəmlənməsində Mehriban xanımın rolu çox böyükdür"*



Eyni zamanda, Azərbaycanın milli maraqları ilə, həmçinin dövlətçilik maraqları ilə uyğun gələn ölkələrlə sıx əməkdaşlıq qurmaq, müttəfiqlik etməklə beynəlxalq sistemdə mövqeyini möhkəmləndirmək aparılan siyasətin tərkib hissəsidir. Azərbaycan Qərb və Şərqin qovşağında yerləşməklə mühüm strateji-coğrafi mövqeyə malikdir. Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsi və bu ölkələrlə əməkdaşlıq, tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin yaradılmasıdır. Bununla bağlı son illər bir sıra işlər görülüb, geniş, çoxşaxəli siyasət həyata keçirilir. Bu baxımdan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri böyükdür. Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsində Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu danılmazdır. 2004-cü il mayın 10-da təsis edilən Heydər Əliyev Fondu fəaliyyətə başladığı gündən ölkə hüdudlarından kənarda müxtəlif sahələri əhatə edən bir sıra proqram və layihələr reallaşdırıb. Azərbaycanın dünyada tanıdılmasında fəal rol oynayıb və indinin özündə də oynayır. Bu yöndə yüksək idarəetmə məharəti, professionallıq göstərməklə effektiv nəticələr əldə edən Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin xaricdə təbliği istiqamətində də çox geniş fəaliyyət göstərir. Onun şəbbüsü ilə "İçərişəhər" tarixi memarlıq qoruğu və "Qobustan" qayaüstü abidələri Ümumdünya Mədəni İrs Siyahısına salındı. Mehriban xanımın səyi nəticəsində mədəni-mənəvi irsimizin əzəmətli abidəsi olan muğam YUNESKO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edildi. Dünyanın bir sıra aparıcı dövlətlərində Azərbaycan həqiqətlərinin beynəlxaq ictimayətə çatdırılması ilə bağlı Mehriban xanımın təşəbbüsü ilə keçirilən tədbirlər, dövlət rəsmiləri ilə keçirilən görüşlər bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bütün bu deyilənlərdən çıxış edərək, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsində Mehriban Əliyevanın rolunu ekspertlər necə dəyərləndirir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu Mehriban xanımın bu yöndə xidmətlərini konkret faktlarla əsaslandırdı: "Konkret olaraq Heydər Əliyev Fondu xristian katakombalarını təmir etdirdi. Bu minvalla xiristian dünyası ilə iş aparıb Azərbaycanı Avropaya təqdim etdi. Ümumdünya Kilsələr Şurası deyilən qurum var. Bu qurum əvvəl həm Dağlıq Qarabağ məsələsi, həm də qondarma "erməni soyqırımı" ilə bağlı Azərbaycan və Türkiyəyə qarşı qətnamə qəbul edirdi. Mehriban xanım xristian dünyası ilə iş aparandan sonra Ümumdünya Kilsələr Şurası Azərbaycanın əleyhinə qətnamə qəbul etməyib. Əksinə, müəyyən mənada ermənilərə başa salırlar ki, Azərbaycanla normal qonşuluq edin. Digər tərəfdən, Mehriban xanım uzun müddət parlamentdə ABŞ-la əlaqələrinin kuratoru olub. Bu gün ABŞ-Azərbaycan münasibətləri kifayət qədər üstün səviyyədədir. ABŞ-ın Azərbaycanla, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi stabil və davamlıdır. Həmçinin, strateji cəhətdən əsaslandırılmış mövqedir. Bir neçə ermənipərəst konqresmeni çıxmaq şərtilə, qalan bütün qurumlar Qarabağ məsələsində həmin mövqeyə əməl edirlər. Daha sonra Mehriban xanım Azərbaycan-Fransa münasibətlərinin kuratoru oldu. Məhz bundan sonra Fransa-Azərbaycan əlaqələri daha da genişləndi. Fransa Azərbaycana peyk satdı. Bunun sayəsində Azərbaycan Kosmos vasitəsilə bir sıra vacib informasiyalar əldə edir. Mehriban xanımın apardığı işin nəticəsi idi ki, Fransa kimi bir vaxtlar ermənipərəst mövqe tutan dövlət Azərbaycanla bu cür yaxın əlaqələr qurdu.

Təsadüfü deyil ki, Azərbaycan-Fransa iqtisadi əlaqələri bu gün ən yüksək səviyyədədir. Onun son Fransa səfərindən sonra artıq "Rotşild" Banklar Qrupu Azərbaycana gəlmək istəyir. Ona görə də beynəlxalq münasibətlər sistemi prizmasından yanaşdıqda Mehriban xanım müsəlman dünyasında yeganə xanımdır ki, bu qədər böyük uğurlar əldə edib. Bu baxımdan Qafqazda Mehriban xanım qədər nüfuzlu xanım lider görmürəm. Bir sözlə, beynəlxalq müstəvidə Azərbaycanın təbliğində, mövqelərinin möhkəmlənməsində Mehriban xanımın rolu çox böyükdür".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın qonşularına "Abxaziya operativliyi" jesti... Qondarma "DQR" operativliyi niyə görünmür...

**Azərbaycan Xarici İşlər Nazirliyi Gürcüstanın Abxaziya bölgəsində 25 avqust 2019-cu il tarixində keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, Azərbaycan XİN Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 25 avqust 2019-cu il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş "prezident seçkiləri"ni, həmçinin onların nəticələrini tanımır.**



***Nəzakət Məmmədova:** "Yaxşı olardı ki, Azərbaycanın bu mövqeyi nümunə olsun və separatizmə dəstək verən, yaxud ona qarşı neytral olan ölkələr, təşkilatlar da bu cür davransınlar"*

Azərbaycan Xarici İşlər Nazirliyi Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir.

Azərbaycanın özü də separatçılıqdan əziyyət çəkən ölkədir. Bizim ərazimizdə yaradılan qondarma "DQR"-də də tez-tez saxta seçkilər keçirilir. Ancaq təəssüflər olsun ki, biz bənzər operativ reaksiyanı qonşu ölkələrdən görmürük. Bəllidir ki, belə məsələlərdə reaksiya operativ və impulsiv olmalıdır. Bu baxımdan, Azərbaycanın məlum operativ jesti onlar üçün bir nümunə, örnək sayıla bilərmi?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanın mövqeyi təqdirəlayiqdir, qanuna müvafiqdir: "Separatizm və onun nəticələrini legitimləşdirmək cəhdləri qətiyyən yolverilməzdir və hər bir sivil, demokratik, hüququn aliliyinə dəyər verən ölkə buna öz kəskin münasibətini bildirməli, qətiyyətli mövqe ortaya qoymalıdır. Xüsusilə Azərbaycan kimi separatzmdən əziyyət çəkən ölkələrin belə məsələdə neytral qalmaması doğru mövqedir. Üstəlik də, Azərbaycanla Gürcüstan yaxın strateji əlaqələrə malikdir, Abxaziya və Qarabağ separatçıları arasında yaxın əlaqələr var, onlar Rusiyadakı bəzi dairələr tərəfindən himayə olunur və s.

Azərbaycan özü separatizmdən əziyyət çəkən, beynəlxalq hüquqa riayət edən, qonşu Gürcüstanın ərazi bütövlüyünü tanıyan dövlət olaraq haqlı şəkildə bu prosesə etirazını bildirib. Yaxşı olardı ki, Azərbaycanın bu mövqeyi nümunə olsun və separatizmə dəstək verən, yaxud ona qarşı neytral olan ölkələr, təşkilatlar da bu cür davransınlar. Dağlıq Qarabağın işğalına, Ermənistan rəhbərliyinin bu ərazilərə qanunsuz səfərlər edib nəinki Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik edən, həm də bütün sivil dünyaya meydan oxuyan Ermənistan rəhbərliyinə səssiz qalmaq bu kimi hallarla gələcəkdə istənilən ölkənin üzləşməsinə şərait yaradır. Azərbaycan, bütün istiqamətlərdə olduğu kimi, bu məsələdə də yaxşı bir örnək modeli ortaya qoyur. Xüsusilə də qonşu və separatizmdən əziyyət çəkən ölkələr bu cür məsələlərdə gözləmə mövqeyində durmamalıdır, onların reaksiyası da operativ olmalıdır. Separatizm elə bir bəladır ki, onunla mücadilədə bütün ölkələr həmrəylik nümayiş etdirməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**Mərhum Əbülfəz Elçibəyin siyasi irsinə sahib çıxmaq istəyən, özünü hərəkatdan doğan böyük bir partiyanın davamçısı kimi qələmə verənlərdən biri də Əli Kərimlidir. "Biri də" ona görə deyirik ki, AXCP adına və Əbülfəz Elçibəyin siyasi yoluna iddia edən çoxlu sayda siyasi qurum və partiya var.**

# Olan-qalan ətrafını Əli Kərimlinin yanında saxlayan maraqlı motiv açılır...

## *Rəfael Becanov: "Buna partiya sədri demək olmaz, o, toplum rəhbəridir"*



Onların, da demək olar ki, hamısı klassik AXC-dən doğan, sonra isə partiyalaşaraq AXCP-yə çevrilən qurumun şinelindən çıxıb. Siyasi təşkilatda ən böyük və ilk parçalanma 2000-ci ildə, Elçibəyin vəfatından sonra oldu. Onda Əli Kərimli və onun ətrafını heç kim AXCP kimi qəbul etmirdi. Hətta həmin dövrün KİV-ləri belə Əli Kərimlini "Yurd" sədri kimi qeyd edirdi. O vaxtkı maddi imkanlar və hakimiyyətlə olan sıx əlaqələri hesabına partiyasının vitrinində bəzi tanınmış funksionerləri saxlamağı bacaran Əli Kərimli sonradan, demək olar ki, meydanda tək qaldı. Hazırda Əli Kərimlinin rəhbəri olduğu qurumda cəmiyyət tərəfindən birmənalı olaraq qəbul edilən elə bir ciddi, tanınmış ziyalı qalmayıb. Müşahidələr göstərir ki, artıq Əli Kərimlinin təşkilatı virtual qurum kimi fəaliyyət göstərir. Onlar partiyaya üzvləri də virtual məkandan yığır, bütün toplantılarını və təbliğatlarını da həmin platformadan aparırlar. Əli Kərimlini tədbirlərdə müşayiət edən elektorat təmsilçiləri sırasında hansısa tanınmış personaya rast gəlmək mümkün deyil. Ətrafda əsasən az sayda radikal gənclik nəzərə çarpır. Hətta cəbhəçilərin özləri belə Əli Kərimlinin siyasi perspektivinə inamlarının olmadığını açıq etiraf edirlər. Amma onların Əli Kərimlinin ətrafında niyə qalmalarına dair başlıca arqumentləri sədrlərinin radikal çıxışlar etməsi ilə bağlıdır. Qəribə bir mənzərə yaranır. Hazırda Əli Kərimlinin ətrafında qalan azsaylı tərəfdarları belə onun yanında siyasi perspektivinə inandıqları üçün deyil, hakimiyyətə münasibətdə radikal mövqe tutduğu üçün qalırlar. Hətta tərəfdarlarından biri mövqeyini belə əsaslandırdı: "Bilirik ki, onun şəxsi siyasi perspektivi yoxdur. Ona hakimiyyət verməzlər. Ancaq onun kimi hakimiyyəti kəskin tənqid edən varsa, deyin, gedim durum başqasının yanında".

Əli Kərimlinin ətrafında yaranan bu mühitə hansı adı vermək olar? Azsaylı tərəfdarları onun yanında nəyə görə qalır - siyasi perspektivinə görə, ya özləri hakimiyyətlə barışmaz yol tutduqlarına görə?

*"Əli Kərimli özünü siyasətlə məşğul olan kimi qələmə verib, insanları aldadaraq öz maraqlarını təmin edir"*

Klassik AXCP-nin üzvlərindən olan, hazırda Razi Nurullayevin rəhbərlik etdiyi AXCP-də funksioner sayılan Rəfael Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, vəziyyətin bu şəkildə olmasından onlar xəbərdardılar: " Əli Kərimli siyasətdən daha çox insanların, narazı elektoratın psixikası ilə oynamağı bacarır. Bunla özünə dividentlər toplayır. Hakimiyyətdən xırda bir texniki səbəbdən də narazı qalan vətəndaşı ovsunlayaraq öz yanına çəkir. Birinin pensiyası vaxtında verilmir Əli Kərimli məsələni siyasiləşdirir və bunu hakimiyyətin təxribatı kimi dəyərləndirir. Nəticədə xırda narazıları belə yanına cəlb edir. Onları sayı həddən artıq azdır. Həmin adamlar Əli Kərimlini rəhbər kimi qəbul etməyə məcbur qalır. Onu sadəcə bir qrupun fikirlərini daha yaxşı ifadə etməyi bacaran müvəqqəti adam kimi qəbul edirlər. Buna partiya sədri demək olmaz, o, toplum rəhbəridir. Təşkilatın dağılması, "Yurd"un bir neçə nəfərdən ibarət olan adamla meydanda tək qalmasının da hamısı Əli Kərimlinin yersiz ambisiyaları və siyasi bacarıqsızlığı ilə əlaqəlidir. AXCP ilk dəfə parçalananda belə, hamı bilirdi ki, Əli Kərimlinin yanında dayanmaq mümkün olmayacaq. Biz hələ o vaxt həmin adamlara deyirdik ki, adamın heç bir perspektivi yoxdur. Bəziləri həmin dövrdə bir az inanırdı. Sonra əsl həqiqəti dərk edib, ondan uzaqlaşdılar. Əli Kərimli özünü siyasətlə məşğul olan kimi qələmə verib, insanları aldadaraq öz maraqlarını təmin edir. Bununla dolanışığını qurur, başını qatır. Orda müəyyən qədər adam varsa, o da gənclərdi. Cünki onları yoldan çıxarmaq asandır. Biz bildiyimizdən daha çox, onun ətrafında olanlar bilirlər ki, Əli Kərimlini uğurlu perspektiv gözləmir. Sadəcə, özlərinin deyə bilmədiklərini o yaxşı dediyi üçün onun yanıda cəmləşiblər".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Bildiyimiz kimi, uzun illər idi ki, İranda yaşayan Azərbaycan türklərinin ana dillərində orta və ali təhsil almaları böyük problem kimi güney azərbaycanlıları ciddi narahat edirdi. Bu gün İranda yaşayan qeyri-farsların ana dillərində orta və ali təhsil almaq hüquqları olsa da, təəssüf ki, bu, azərbaycanlılara şamil edilmirdi.**

# İranda milyonlarla azərbaycanlının ana dilində təhsil arzusu reallaşdı(?)

## *Sədrəddin Soltan: "İran orta məktəblərdə Azərbaycan türkcəsində fakültətiv tədris həyata keçirmək qərarı ilə beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi güdür"*



Son zamanlar İranda yaşayan azərbaycanlıların ana dillərində təhsil almaları sahəsində buzlar əriməyə başlayıb. 40 ilə yaxın bir müddətdə Azərbaycan türkləri doğma ana dilində təhsil almaq hüququna qovuşa bilmirdi.

Yayılan məlumata görə, İranın Şərqi Azərbaycan əyalətindəki məktəblərdə 2019-2020 tədris ilində Azərbaycan türkcəsində təhsil veriləcək.

TRT-nin yaydığı məlumata görə, bu barədə İSNA-ya Şərqi Azərbaycan üzrə Təlim-Təhsil şöbəsinin müdiri Cəfər Paşa bildirib: "İranın Təhsil Nazirliyinin orta məktəblər üçün hazırladığı xüsusi proqrama əsasən, yerli xalqın öz dilində təhsil almaq istəyi nəzərə alınaraq Şərq Azərbaycan əyalətindəki məktəblərdə bundan sonra Azərbaycan türkcəsində də dərslərin keçilməsi qərarı alınıb. Dərslər 23 sentyabrdan və həftədə 3 saat olmaqla bu ildən başlanır. Şərqi Azərbaycan əyalətində Azərbaycan türkcəsində təhsil böyük əhəmiyyət daşıyır".

Qeyd edək ki, İran Konstitusiyanın 15-ci maddəsinə əsasən, yerli dillərin öyrədilməsilə bağlı tələblər daim səslənirdi. Artıq əyalətimizdə iki dil - Azərbaycan türkcəsi və farsça paralel tədris ediləcək.

Orta Doğu araşdırmalar mərkəzinin rəhbəri, şərqşünas Sədrəddin Soltan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İran höküməti bununla dünyanın gözünə kül üfürür, əslində isə burada ana dilində normal orta təhsildən söhbət getmir, Azərbaycan dili fakültətiv fənn kimi tədris ediləcək. "Şərqi Azərbaycan əyalətindəki məktəblərdə Azərbaycan türkcəsində təhsil daimi xarakter daşımır. Azərbaycan dili Şərqi Azərbaycan əyalətindəki məktəblərin IV və IX siniflərində pilot bir layihə kimi, fakültətiv olaraq keçiriləcək. Bu da, qeyd etdiyim kimi, vacib dərslik kimi deyil, fakültətiv məşğələ kimi tədris olunacaq. Otuz ildən artıqdır ki, İranda Azərbaycan türkləri öz milli təhsil hüquqları və milli haqlarının təmin olunması uğrunda mübarizə aparır, fikirlərini bildirirlər. Bu səbəbdən də İran hököməti bölgədə yaranan vəziyyətə uyğun olaraq Azərbaycan türklərinin etirazını azaltmaq üçün belə bir addım atıb. Bu isə baş aldatmaqdan başqa bir şey deyil. İranda Azərbaycan türkləri türkcənin I sinifdən XII sinfə qədər tədris olunmasını tələb edirlər. Yəni dövlət proqramı səviyyəsində. Yoxsa fakültətiv məşğələ kimi Azərbaycan dilinin IV və IX siniflərdə tədris olunmasına nail olmaq Azərbaycan türklərinin tələbi deyil. Azərbaycan türklərinin milli hərəkatının illər boyu fars düşüncəsindən tələb etdiyi odur ki, Azərbaycan türkcəsi də fars dili kimi ölkədə dövlət dili olaraq tanınsın. Azərbaycan türkcəsinin I-XII siniflərdə və ali məktəblərdə yüksək səviyyədə tədris edilməsi arzuediləndir. Tələb odur ki, Azərbaycan türkcəsində radio-televziya, ədəbiyyat olsun, yəni dilimizin İranda bazarı olsun".

*"Azərbaycan dili Şərqi Azərbaycan əyalətindəki məktəblərin IV və IX siniflərində pilot bir layihə kimi fakültətiv olaraq keçiriləcək"*

S.Soltan hesab edir ki, İranın Şərqi Azərbaycanda azərbaycan dilinin fakültətiv tədrisinə imkan yaratması Azərbaycan türklərinin ana dilində tədris probleminin həll edilməsi anlamına gəlmir. "Bununla Azərbaycan türklərinin milli problemi həll olunmayacaq. Fakültətiv tədrisi ortaya at və sonra da de ki, azərbaycanlılar öz dillərində təhsil almaq istəmir. Dilin bazarı yoxdursa, o dil nəyə lazımdır? O dildə televizya, radio, nəşrlər olmalıdır ki, dilin işləkliyi təmin olunsun. Sadəcə olaraq, İran bu addımı atmaqla həm dünya ictimaiyyətini aldatmaq istəyir, həm də Azərbaycan türklərinin "başını sığallamağa" çalışır. İran orta məktəblərdə Azərbaycan türkcəsində fakültətiv tədris həyata keçirmək qərarı ilə beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi güdür"-deyə S.Soltan vurğuladı.

***İradə SARIYEVA***

# Beynəlxalq kitabxanaların Azərbaycanda yazılmış bəzi Qarabağ kitablarından imtina arqumenti "topa tutuldu"...

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev bu günlərdə beynəlxalq elmi mərkəzlərdə Azərbaycan haqda obyektiv araşdırmaların çatışmazlığını qeyd edib. Onun fikrincə, çox vaxt Azərbaycan haqda kitabların müəllifləri ermənilər, ya da ermənipərəst araşdırmaçılar olur.**



O qeyd edib ki, rəhbərlik etdiyi qurumun əsas məqsədi dünya birliyini Azərbaycan və Qarabağ münaqişəsi haqda obyektiv məlumatlandırmaqdır. Bu onların fəaliyyətinin əsas istiqamətlərindən biri olacaq. Xarici mütəxəssislərin cəlb edilməsi bu boşluğu doldurmaq və beynəlxalq auditoriyaya dərin obyektiv araşdırmalar təqdim etmək məqsədi daşıyır.

F.Şəfiyev Qarabağ həqiqətləri ilə bağlı bir məqama xüsusi toxunub. O qeyd edib ki, bəzən beynəlxalq kitabxana mərkəzləri azərbaycanlı müəlliflərin Qarabağ münaqişəsinə dair kitablarını qəbul etməkdən imtina edirlər. Bunu onunla əsaslandırırlar ki, sözügedən kitablar çox emosionaldır və elmi standartlara uyğun deyil.

O da məlumdur ki, Qarabağ münaqişəsi ilə bağlı son illər bir sıra araşdırmalar aparılıb, kitablar yazılıb. Bu mövzuda yazılanların bəziləri xarici dillərə tərcümə edilib. Ancaq görünən odur ki, bu istiqamətdə görüləsi işlər çoxdur.

Maraqlıdır, beynəlxalq kitabxana mərkəzlərinin azərbaycanlı müəlliflərin Qarabağ münaqişəsinə dair kitablarını qəbul etməkdən imtina edərkən səsləndirdikləri arqumentləri ekspertlər necə dəyərləndirir?

***Qasım Hacıyev:** "Beynəlxalq kitabxanaların yazdıqlarımızla bağlı gətirdiyi arqumentləri qəbul etmirəm"*

***Vaqif Abışov:** "Bizim tarixçilərin Qarabağla bağlı yazdıqları kitablar təkcə öz arxivlərimizə söykənmir"*

Məsələyə münasibət bildirən AMEA-nın Qafqazşünaslıq institutunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru Qasım Hacıyev bununla razılaşmadı. Onun fikrincə, ermənilərin mövqeyindən çıxış edən müəlliflərin yazdıqları kitablar daha emosionaldır, nəinki bizim: "Ancaq nədənsə ermənilərin xeyrinə yazılan belə kitabları qəbul etməkdən imtina etmirlər. Yaxşı olardı ki, beynəlxalq kitabxana mərkəzləri Vladimir Kazimirovun yazdığı "Qarabağa sülh və Rusiyanın barışdırıcılıq missiyası" kitabına bir baxsınlar. Kazimirov yazdığı kitabda aşırı dərəcədə emosiyalara qatılıb. Guya sadə dillə yazır deməklə çoxsaylı artıq-əskik ifadələr səsləndirib. Kitabda çox ağır ittihamlar və yersiz, mənasız sözlər işlədib. Digər tərəfdən, Akademiyanın müxbir üzvü Babken Arutunyan məqaləsində yazır ki, "itlə pişik nə qədər bir-birinə yaxındırsa, Qafqaz Albaniyası ilə azərbaycanlılar bir-birinə o qədər yaxındı". Qarabağın ermənilərə aid olmasını sübut etmək üçün elə ağlagəlməz şeylər yazırlar ki, bu gülünc olmaqla yanaşı qəzəb yaradır. Heç olmasa emosianal sözün bir çəkisi var. Ancaq yalan üzərində qurulan və birtərəfli əfsanələr əsasında yazılan tarix daha gülüncdür. O üzdən, beynəlxalq kitabxanaların yazdıqlarımızla bağlı gətirdiyi arqumentləri qəbul etmirəm. Azərbaycan tarixçiləri Qarabağla bağlı müxtəlif əsərlər yazırlar və bunlar elmi standartlara uyğundur. Bunların içində güclüsüdə var, zəif olanı da. Ancaq yaxşı olardı ki, sözügedən kitabxanalar ermənilərin və azərbaycanlıların yazdıqlarını bir daha vərəqləsinlər. Bizim yazdıqlarımız çox ciddi faktlarla, tutarlı arqumentlərlə zəngindir, amma ermənilərin kitablarda bunlar yoxdur".

AMEA-nın Tarix İnstitutunun dosenti, tarix elmləri doktoru Vaqif Abışovun sözlərinə görə, beynəlxalq kitabxanaların timsalında belə yanaşmalar var: "Ancaq hesab edirəm ki, onların bizimlə bağlı səsləndirdikləri arqumentlər əsaslı deyil. Çünki bizim tarixçilərin Qarabağla bağlı yazdıqları kitablar təkcə öz arxivlərimizə söykənmir. Bu yazılanlar dünya tarixçilərinin yazdıqları əsərlərə söykənir. Onların yazdığı elmi-tədqiqat işlərinə istinad edərək sübut ediblər ki, Qarabağ Azərbaycan torpağıdır.

Orada yerli əhali məhz tarixboyu Azərbaycan türklərinə məxsus olub. O üzdən demk ki, bizim Qarabağla bağlı yazdıqlarımız elmi standartlara uyğun deyil, bu doğru olmaz. Bütün bu çətinliklərə baxmayaraq, biz Dağlıq Qarabağla bağlı elmi-tədqiqat işlərini davam etdirməliyik. Mən özüm də bu sahədə tədqiqatlar aparıram. Britaniya, İtaliya, o cümlədən Türkiyə arxivlərində kifayət qədər ermənilərin Azərbaycana yönəlik işğalçılıq siyasəti, ərazi iddiaları ilə bağlı tutarlı sənədlər var. Həmin sənədlərin bir qismini AMEA çap edib və müxtəlif dillərdə dünya ictimayətinə çatdırıb".

*Vidadi ORDAHALLI*

# Ermənistanın "Naxçıvanda Türkiyə hərbi bazası" blefi və daxili ittihamlardan yayınmaq cəhdi...

**Ermənistan təbliğat maşını növbəti dezinformasiyan dövriyyəyə buraxıb. Erməni KİV-ləri həmin ölkənin Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, akademik Ruben Safrastyana istinadən bildiriblər ki, Türkiyə son illər öz hüdudlarından kənarda iki hərbi baza yaradıb - Sudanda və Qətərdə.**



Və son vaxtlar Naxçıvanda üçüncü bazanın meydana çıxa biləcəyi haqda söz-söhbətlər artıb: "Məni bu informasiyanın birinci mənbəyi çox maraqlandırırdı və deyəsən mən həmin mənbəni tapa bildim. 2018-ci ilin sentyabrında o qədər də tanınmayan türk qəzetində məqalə dərc edilib, orada deyilirdi ki, Ankara kulislərində Türkiyənin Naxçıvanda hərbi baza yaratması məsələsi müzakirə olunur. Görünən o idi ki, bunu qəsdən sızdırmışdılar və nəbz yoxlaması aparmaq istəyirdilər". Safrastyan əlavə edib ki, Bakı və Ankara arasında Naxçıvan ərazisində hərbi əməkdaşlıq son illər xeyli güclənib, birgə təlimlər keçirilir və bütün bunlar Türkiyənin Naxçıvan istiqamətində fəallaşdığını göstərir: "Bütün bu amillərin analizi əsasında təxmin etmək olar ki, hazırda Naxçıvanda Türkiyə hərbi bazasının yaradılmasına hazırlıq gedir. Bu tezliklə baş verməyəcək, amma hazırlıqlar gedir. Ankaranın əsas məqsədi geosiyasi xarakter daşıyır və Cənubi Qafqazdakı Rusiya-Türkiyə rəqabətindən qaynaqlanır. Türkiyənin məqsədlərindən biri də Gümrüdəki 102-ci Rusiya bazası ilə balans yaratmaqdır". O bildirib ki, Naxçıvanda baza yerləşdirəndən sonra Türkiyə Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması üçün iddia ortaya qoya bilər: "Əlbəttə, baza Ermənistana əlavə təzyiq rıçağı da olacaq. Lakin bütün bunlar gələcəkdə baş verəcək. Türkiyənin başı hazırda Yaxın Şərq işlərinə qarışıb və bu perspektiv aktual deyil. Mənim fikrimcə, Rusiya artıq konfidensial şəraitdə Türkiyəyə öz narazılığını çatdırıb və bu da Ankaranın Naxçıvan istiqamətində fəallığının azalmasına səbəb olub. Lakin Türkiyənin geosiyasi məqsədləri əvvəlki kimi qalır". Qeyd edək ki, Azərbaycan son illər Naxçıvanda hərbi iştirakını dəfələrlə gücləndirib, Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusu ən müasir və güclü silah sistemləri, hücum vasitələri ilə təchiz olunub. Müntəzəm olaraq Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri hərbi təlimlər keçirir, o cümlədən Türkiyə ordusu ilə birgə təlimlər təşkil olunur. Azərbaycanın Naxçıvanda hərbi gücünü artırması Ermənistan hərbi-siyasi dairələrində ciddi narahatlıq və təşvişlə izlənilir. Çox güman ki, bu amili neytrallaşdırmaq üçün onlar belə məlumatları dövriyyəyə buraxırlar. Bununla həm Türkiyəni Rusiyanın hədəfinə gətirmək istəyirlər, həm də daxilli auditoriyanın ittihamlarından yayınmağa cəhd edirlər. Türkiyənin Azərbaycanda hərbi baza yaratması mümkündürmü?

***Elşən Həsənov:** "Milli Təhlükəsizlik doktrinamızda göstərilib ki, ölkə ərazisində heç bir xarici dövlətin hərbi bazası yerləşdirilə bilməz"*

Təhlükəsizlik məsələləri üzrə ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistan bu məlumatı ilk dəfə deyil dövriyyəyə buraxır: "Danışıqlar prosesində yaranan fasilə Ermənistanı vadar edir ki, gündəmə yeni mövzular gətirsin. Cəbhədə vəziyyət gərginləşəndən sonra Türkiyənin Azərbaycanda hərbi baza qurması ilə bağlı mövzu yenidən gündəmə gəldi. Belə bir bazanın qurulması mümkün deyil. Çünki Türkiyə NATO ölkəsidir və ondan icazəsiz bunu edə bilməz. Buna mane olan bir çox amillər var. Ən əsası, Azərbaycanın Hərbi Doktirinasında və Milli Təhlükəsizlik Doktrinasında göstərilib ki, ölkə ərazisində heç bir xarici dövlətin hərbi bazası yerləşdirilə bilməz. Bu və bundan başqa da bir çox manelər var. Belə bir şeyin olması haqda fikir söyləyənlər Azərbaycan qanunvericiliyindən xəbərsizdilər. Milli Təhlükəsizlik Konsepsiyasına əsasən, Azərbaycan ərazisində hər hansı başqa xarici dövlətin hərbi bazası, yaxud əsgəri qüvvəsi yerləşdirilə bilməz. Hələlik bu qanuna heç bir dəyişiklik edilməyib. Yəni hüquqi əsas olmadığı halda necə ola bilər ki, Türkiyə Silahlı Qüvvələrinin burda hərbi bazası yaradılsın? Ermənilər bunu gözəl bilir. Sadəcə, Rusiyanı onlara daha çox havadar çıxmağa bu yolla səsləmək istəyirlər. Əsası olmayan şayiədir. Erməniləri əsas narahat edən amil Azərbaycanın Naxçıvandakı hərbi gücünü artırmasıdır. Bunun da ən məntiqi nəticəsini onlar uğurlu Günnüt əməliyyatı zamanı gördülər".

*Məhəmmədəli QƏRİBLİ*

# Berlində məşhur Tələt Paşanı yüz il əvvəl güllələmiş erməni terrorçuya Şirakda heykəl qoyuldu...

**Ermənistanın növbəti qeyri-etik hərəkəti ortya çıxıb. İşğalçı ölkənin Şirak şəhərində daşnak-qatil Soqomon Teyliryanın heykəli ucaldılıb və heykəldə məşhur Türk generalı Tələt Paşa təhqir olunub. Bununla bağlı sosial şəbəkələrdə aparılan müzakirələrdən məlum olur ki, Ermənistanın Şirak rayonunda Türk generalı Tələt Paşanı qətl edən Soqomon Teyliryanın heykəli ucaldılmışdır.**

*"Xüsusilə də Türkiyə hökuməti məsələ ilə bağlı səssiz qalmamalıdır"*

## *Hatəm Cabbarlı: "Bu cür məsələlər geniş ictimailəşməlidir ki, dünya erməni terrorizminin nəyə qadir olduğunu görsün"*



Heykəlin ayağının altında Talat Paşanın kəsilmiş başı təsvir edilib. Qeyd edək ki, Tələt Paşa 15 mart 1921-ci ildə Berlində Daşnaksütun partiyasının təşkil etdiyi "Nemezis" əməliyyatı çərçivəsində Soqomon Teyliryan adlı erməni terrorçusu tərəfindən qətlə yetirilib. Ələ keçirilən cinayətkar əqli xəstə olması bəhanə göstərilərək məhkəmə tərəfindən sərbəst buraxılıb (3 iyun 1921).

Cinayətkar Soqomon isə məhkəmədə cinayəti şəxsən törətdiyini və bundan peşman olmadığını bildirib:

"Almaniyaya bir məqsəd üçün gəlmişdim: Tələt Paşanı öldürmək. Ailəm 1915-ci ildə ermənilərin köçürülməsi zamanı ölüb, mən təsadüfən sağ qalmışam. O vaxt onu öldürmək üçün and içdim. Bəzi erməni mənşəli vətəndaşlar bu işə görə mənə pul verdi. Uzun müddət Berlində oldum. Bir neçə həftə əvvəl Tələt Paşanın evi ilə üzbəüz binada ev tutub qaldım. Ona rahatlıqla nəzarət edib, vərdişlərini əzbərlədim. Ermənilərin qatili Tələt Paşanın öldüyünü eşidən vətəndaşlarımız rahat nəfəs alacaq və bu uğurumdan dolayı mənimlə fəxr edəcəklər… Məsuliyyəti tam üzərimə götürürəm…".

3 iyun 1921-ci ildə məhkəmənin münsiflər heyətinin rəhbəri Otto Renke qərarını açıqlayır: "Şübhəli Solomon Teyliryan 15 Mart 1921-ci ildə Tələt Paşanı qəsdən öldürməkdən günahkar deyil".

Solomon məhkəmə zalından azadlığa buraxılır.

Tələt Paşanın uzun müddət Berlin müsəlman məzarlığında qalan cənazəsi isə 22 il sonra İstanbula gətirilərək Hürriyət abidəsi yaxınlığında dəfn edilib (25 fevral 1943).

Onu da qeyd edək ki, adıçəkilən heykəl 2015-ci ildə, uydurma və qondarma "erməni soyqırımı"nın yüz illiyində açılıb. Maraqlıdır ki, bu hadisə ilə bağlı ölkəmizdə hər hansı KİV materialı dərc edilməyib. Mövzunu ilk dəfə olaraq siyasi elmlər doktoru Hatəm Cabbarlı öz Feysbuk profilində paylaşıb. Məsələyə tam aydınlıq gətirmək üçün onun özü ilə əlaqə saxladıq. Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu mövzu bir neçə gündür ki, Feysbukun Azərbaycan seqmentində müzakirə edilir: "Söhbət ermənilərin terrorçuya ucaltdığı heykəldən və həmin heykəldə Tələt Paşanın təhqir edilməsindən gedir. Mənim diqqətimi Bəxtiyar Fərəcov adlı bir şəxsin Feysbukda etdiyi paylaşım çəkdi. Həmin paylaşım məhz bu mövzunu əhatə edirdi. Məni çox təəccübləndirdi. Yəni ermənilərin böyük şəhərlərindən birində vəhşilyi təbliğ edən belə bir abidənin ucaldılması bəşəriyyətə meydan oxumaq anlamına gəlirdi. Daha sonra internet üzərindən axtarış etdikdə buna əmin oldum. Erməni dilini təmiz bildiyim üçün, məhz erməni dilində yazılan materialları çox araşdırdım. Məlumat təsdqini tapdı. Erməni mənbələrində tam etiraf olunur ki, ucaldılan heykəl terrorçuya aiddir, onun ayaqlarının altında olan kəsilmiş başın isə Tələt Paşaya aid olmasına şübhə qalmırdı. Apardığım araşdırma zamanı mən heykəlin emalatxanada olan variantını da tapdım. Hiss olunur ki, onlar emalatxana variantından fərqli olaraq heykəlin qoyuluşu zamanı Tələt Paşanın üznün bir qədər tanınmasını istəməyiblər. Sonra isə qondarma soyqırımla bağlı keçirdikləri "yubiley" ə "hədiyyə" kimi 2015-ci ildə ucaldılan heykəli yenidən orijinal variantına qaytarırlar".

Ekspertin sözlərinə görə heykəli ucaldılan şəxs Teyliryan Türkiyə vətəndaşı olub: "Qeyd etdiyinə görə ailəsi türklər tərəfindən qətl edilib və buna görə də qisas almaq üçün Berilnə gedib və orda Tələt Paşaya qarşı terror həyata keçirməyə nail olur. Ona məhkəmədə bəraət verilir. Sonra Serbiyaya köçür. Bir müddət orda yaşadıqdan sonra Meksikaya gedir. Sonra isə ABŞ-ın Sank Fransisko şəhərində ölür. O, bir erməni terrorçusu olub. Ermənistanda həmin şəxsi təbliğ edən ilk hadisə deyil. Mənim bildiyimə görə, onunla bağlı bir neçə kitab yazılıb, hətta sənədli filim də çəkilib. Belə bir heykəlin Ermənistanda ucaldılması Ermənistanın terrorçu dövlət olduğuna şübhə yeri qoymur.

Bundan əvvəl onlar Qaregin Njdenin də heykəlini ucaldıblar. Həmin adam da erməni milliyyətçiliyini sistemləşdirən, erməni terrorizmini inkişaf etdirən ideoloq olub. Hətta Ermənistanın özündə belə bəzi dairələr bu cür adamlara heykəl qoyulmasına qarşı çıxıb. Hətta Njdeyə ucaldılan heykələ Rusiya da etiraz etdi. Çünki o Hitlerlə birləşib ruslara qarşı vuruşmuşdu. Bu cür məsələlər geniş ictimailəşməlidir ki, dünya erməni terrorizminin nəyə qadir olduğunu görsün. Xüsusilə də Türkiyə hökumətin məsələ ilə bağlı səsiz qalmamalıdır. Bununla bağlı Ermənistandan izahat tələb etməli, hətta heykəlin götürülməsini belə tələb etməlidir. Məlum olur ki, Türkiyə tərəfi indiyə qədər məsələyə reaksiya verməyib. Erməni terrorizmi qurtarmayıb, bu gün də var və dövlət səviyyəsində davam etdirilir".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ məhkəməsi erməni diasporunun 1915-ci il hadisələrinə görə Türkiyədən təzminat iddiasını rədd etdi...



**ABŞ-da erməni diasporu nümayəndələrinin Türkiyəyə qarşı qaldırdığı və 9 il davam edən məhkəmə iddiaları uğursuzluqla nəticələnib.**

Baki-xeber.com "Anadolu" agentliyinə istinadən xəbər verir ki, Qaris Davoyan və Hrayra Turabyan tərəfindən 29 iyul 2010-cu ildə, Aleks Bakalyan, Anais Harutyunyan və Rita Mehdesyanın tərəfindən isə 10 dekabr 2010-cu ildə Kaliforniya Əyaləti Region İdarə Məhkəməsində Türkiyə hökuməti, Mərkəz Bankı və Ziraat Bankı əleyhinə açılan iki ayrı təzminat iddiası rədd edilib.

ABŞ məhkəmələrində doqquz il davam edən prosesdə iddia qaldıran erməni əsilli 5 Amerika vətəndaşı 1915-ci il hadisələri zamanı Osmanlı dövləti tərəfindən ailələrinin "əmlak və ərazilərinin müsadirə edildiyini" iddia edərək təzminat tələb edirdilər.

Kaliforniya Məhkəməsi 26 mart 2013-cü ildə çıxardığı qərarla, iddianın əsassız və mahiyyət etibarilə siyasi bir məsələ olduğu qənaətinə gəlib. Ancaq Türkiyə leyhinə bu qərar erməni diasporunu qane etməyib.

ABŞ-dakı ermənilərin vəkilləri 2013-cü ilin aprelində qərarı apelyasiya məhkəməsinə çıxarıblar. Kaliforniya 9-cu Bölgə Apelyasiya Məhkəməsi iki işi birləşdirib. 9 ildən sonra isə Kaliforniya Apelyasiya Məhkəməsi Türkiyənin haqlı olduğuna dair qərar çıxarıb. Məhkəmə 8 avqust 2019-cu ildə, "müddəti bitdiyini" səbəb göstərərək ermənilərin iddiasını rədd edib. Bununla da birinci instansiya məhkəməsinin qərarı qüvvədə saxlanıb.

Məhkəmə ermənilərin tarixi iddiaları ilə bağlı isə hər hansı bir araşdırma aparmadan mübahisəli tələbləri yekdilliklə rədd edib.

Işi qaldıran ermənilər 22 avqusta kimi apelyasiya araşdırmasının yenilənməsini tələb edə bilərdilər. Ancaq iddiaçıların belə bir tələbi olmayıb. Onların tələblərində təkid etməməsində qərarın çox sağlam bir hüquqi bazaya söykənməsi və yekdilliklə verilməsinin təsirli olduğu deyilir.

Hüquqşünaslar, qaydalara görə, iddiaçıların bu məsələni 6 noyabr 2019-cu il tarixinə qədər ABŞ Ali Məhkəməsinə göndərmək hüququna sahib olduqlarını, lakin bu halda da bir nəticə əldə etmələrinin çətin olacağını bildirir.

**Ermənistanda son günlərdə davamlı xarakter almağa başalyan etiraz aksiyaları hakimiyyətlə cəmiyyət arasında ziddiyyətlərin sürətlə dərinləşməkdə olduğunu da aydın şəkildə nümayiş etdirir. Xüsusən də Amulsar qızıl mədəni ətrafında baş verənlər indi Nikol Paşinyan iqtidarı üçün çox ciddi problemlər mənbəyinə çevrilib.**

# Amulsar problemi Paşinyanın axırına çıxır...



Belə görünür ki, əhali bu qızıl mədənində işlərin dayandırılmasını istəsə də, hökumət fərqli mövqedədir.

Cəmiyyətdə hesab olunur ki, hökumətin guya Livan şirkətinin ekspertləri tərəfindən bu qızıl yataqlarının ekoloji cəhətdən zərərsiz olması barədə bəyanatı tamamilə yalandır və ictimai rəyin manipulyasiya olunmasına yönəldilib. Onların sözlərinə görə, Ermənistanın İstintaq Komitəsi ekspert rəyindən yalnız özü üçün sərfəli olan maddələri açıqlayıb. Ekoloq Anna Şahnazaryan bildirib ki, ekspertizanın yekunlarına dair sənədlər düzgün tərtib olunmayıb və qızıl yataqlarının işlənməsinə icazə saxta məlumatlar əsasında verilib. O, müstəqil ekspertlər tərəfindən yeni tədqiqatlar aparılması tələbini irəli sürüb. Baş verənlərlə bağlı "1in.am" portalı isə yazır: "Əlbəttə, hökumət hansısa bir dönüşlə mədənin istismarı haqqındakı qərarını dəyişməzsə, Amulsar məsələsi Ermənistanda inqilabsonrası durumda, ən azı, bir prinsipial sınmaya - dönüşə səbəb olacaq. Mədənin istismarı haqqındakı qərarın reallaşdırılması, faktiki olaraq, yeni hakim qüvvəni və uzun illər ərzində keçmiş rejimə qarşı mübarizə aparmış, inqilab dövründə isə öz dəstəyilə bu qüvvəni praktiki olaraq tamamlamış vətəndaş fəallarını və ya təbəqəsini bölür. Beləliklə, inqilab mərhələsinin "yekun protokolu", ən azı, siyasi və vətəndaş komponentlərinin ayrılması şəklində təsbit olunur. İnqilabdan sonra ən çox toxunulan və yayğınlaşan suallardan biri o idi ki, inqilabla hakimiyyətə siyasi-mülki "blok" gəlibsə, vətəndaş, qeyri-hökumət sektoru necə olacaq? Çünki fəal vətəndaş mövqeyində olanların böyük hissəsi - mütləq əksəriyyəti ya birbaşa hakimiyyətdə təmsil olunmağa, ya da onun sıx və açıq tərəfdarı olmağa başlamışdı.

Keçmiş hakim sistem, onun müxtəlif qanadları isə vətəndaş cəmiyyətində yaranmış bu "açıq" sahəni doldurmağa yönəlik fəaliyyətə başladı. Keçmiş hakimiyyətin nəzərəçarpan himayəsi altında yeni vətəndaş cəmiyyəti, qeyri-hökumət strukturları formalaşdı. Keçmiş iqtidar yalnız yeni hakimiyyətə, inqilaba qarşı siyasi müxalifət yaratmayıb, eyni zamanda vətəndaş və ya qeyri-hökumət qüvvələrinə qarşı da müxalifət yaradıb. Bununla da, inqilabdan sonra yaranmış "vətəndaş boşluğunu" faktiki doldurub. Ən azı, belə təəssürat yaranır. Amulsar məsələsi bu fonda praktiki elə bir güclü "partlayış"dır ki, görünür, inqilabi siyasi-mülki ittifaqı bölür, inqilabın siyasi və vətəndaş seqmentlərini bir-birindən ayırır. Yəni mülki seqmenti siyasi iqtidardan de-fakto ayırır. Bu, müəyyən mənada obyektiv reallıqdır, müxtəlif səbəblər üzündən, şübhəsiz, tədricən baş verməli olan, yavaş və ya sürətli gedəcək bir prosesdir. Bu halda, Amulsar məsələsi prosesi sürətləndirən və ona böyük vüsət verən amil rolunda çıxış edir.

Bölünmə, şübhəsiz, mütləq riyazi təriflərlə və ya dəqiqliklə qiymətləndirilməməlidir. Söhbət ümumi meyldən gedir. Siyasi hakimiyyətlə birləşmiş vətəndaş cəmiyyəti Amulsar məsələsinə görə bu formada, deyəsən, ilkin mövqeyinə"qayıdır". Amulsarla bağlı mövqe aydındır, bəs bundan sonra vətəndaş cəmiyyəti hara və necə hərəkət edəcək? Köhnə hakimiyyət tərəfindən formalaşdırılan komponentlərin və "ilkin mövqeyə" qayıdan təbəqələrin vətəndaş məkanında nisbəti necə olacaq? Yaranan bölünmə indi sürətlə hakimiyyətin əleyhinə işləyir". Milli Razılıq Partiyasının lideri Aram Arutyunyan isə vurğulayır ki, yaranmış vəziyyətdə Ermənistan hökumətinin qeyri-adekvatlığı erməni xalqına böyük qan hesabına başa gələ bilər: "Paşinyan qeyri-adekvat addımlar atmağa hazırdır. Hökumət binası qarşısında 10 min nəfər toplanıb istefasını tələb edərsə, onun necə davranacağını biz bilmirik. Ermənistanda payızda başlayacaq proseslər nəticəsində hakimiyyətin dəyişməsi qaçılmazdır. Ona görə də cəmiyyət bu proseslərə hazırlanmalı və qan axıdılmasından qaçmalıdır". Arutyunyan Paşinyana qarşı formalaşacaq yeni birliyə Ermənistanın eks-prezidenti Robert Köçəryanın rəhbərlik edəcəyini deyib. Digər erməni ekspert Vartan Zaloyan da vəziyyətin ağır olduğunu qeyd edir: "Paşinyan üçün bu, çətin seçimdir. O bilmir ki, onlarla ekoloqların rəyini, yoxsa Ermənistan əhalisinin böyük bir hissəsinin mövqeyini müdafiə etsin. Ekoloqlar azlıq təşkil etdiklərini dərk etməkdə çətinlik çəkirlər. Lakin ekoloqların Amulsar mədəninin istismarı ilə bağlı rəylərinin yalan olduğu həqiqətdir. Keçən əsrin 90-cı illərində Ermənistan inqilab hərəkatı həm ekologiya, həm də Qarabağ variantını seçməkdə idi. Cəmiyyət dözülməz təzyiq altına düşür". O qeyd edib ki, Levon Ter-Petrosyan ekologiyanı seçir, Vazgen Sarkisyan və Köçəryan isə Qarabağı seçməyə üstünlük verir: "Bununla da ikinci seçim, yəni Qarabağ mövzusu qalib gəlir. Daha sonra mədən qələbə yürüşü və sair başlayır. İndi yeni hakimiyyətə eyni təzyiqi göstərməklə Ter-Petrosyan hakimiyyətinin istefa verdiyi aqibəti yaradırlar. Ssenari təkrarlanır. Cəmiyyət eşşəkdir, razıyam, lakin bu iki yükə davam gətirə bilməz, seçim edin.... Fikrim nədən ibarətdir, əvvəlcə Qarabağı azərbaycanlılara qaytarın, daha sonra Amulsar mədənini nə qədər bağlayırsınız, bağlayın. Əldə iki yük tutmaq olmaz".

Ermənistanın "Jamanak" nəşri də vəziyyətin yaxşı olmadığını vurğulayır. Nəşrə görə, Ermənistan hökumətinin son 1 illik fəaliyyətinin xüsusiyyətləri təhlil etməyə çalışılsa, bu halda 3 əsas yanaşma üzərində dayanılacaq: "Bu yanaşmalar qısamüddətli populist qərarların verilməsi, statistika manipulyasiyası və plagiat fəaliyyətlərdir. Bu yanaşmanın sübutu təəssüfdoğurucu həqiqətdir. Paşinyanın rəhbərlik etdiyi kabinetin hətta 1 illik fəaliyyətdən sonra belə uzunmüddətli siyasi fəlsəfə və ideologiya yaradılması və bunun həyata keçirilməsi imkanlarına dair aydın strategiyası yoxdur. Bütün məsələlər zəncirvari məntiqlə bağlıdır. Yəni biri digərinin davamı, yaxud səbəblərinin təzahürüdür. Strategiyanın olmaması qısamüddətli populist qərarların verilməsi, statistik manipulyasiya, plagiat isə siyasi fəlsəfə və ideologiya anlayışının olmaması ilə bağlıdır.

Strategiyanın olmaması özünü, xüsusilə son günlərdə Ermənistanın şimal-şərqində meşə oğurluğu probleminin partlayışa səbəb olması ilə büruzə verdi. Bu hadisə dövlət üçün ciddi imtahan idi və ölkəni idarə edən komanda bu imtahandan keçmədi. Problem və onun ətrafında yaranan mübahisələr fonunda Paşinyan kabinetinin məişət mühitinin qorunması və ətraf mühitin problemləri ilə bağlı strategiyasının olub-olmadığı müəyyən edilmədi. Sanki belə bir strategiya ümumiyyətlə yoxdur və hökumət siyasi məqsədyönlülük və maraqlara əsasən ayrı-ayrı problemlərə reaksiya verir. İcevan meşələrinə gəldikdə, kəskin reaksiya verilməsi məqsədəuyğun olsa da, Amulsar mədəni məsələsində fəaliyyətsiz sükut davam edir. Birinci halda meşə ilə bağlı məsələdə dövləti şantaj etmək olmaz deyilirsə, ikinci halda dövləti nəinki şantaj etmək, hətta buna həvəsləndirməyin də mümkün olduğu nəzərə çarpır".

Nəşr qeyd edir ki, bu məntiqlə Ermənistan hakimiyyətinin fəaliyyəti reytinqin xilas edilməsi səylərinə doğru dəyişikliyə uğrayıb.

***Tahir TAĞIYEV***

Ermənistan Müdafiə Nazirliyinin keçirdiyi və Rusiyanın ORSİS şirkətinin yeganə iştirakçısı olduğu tenderin dayandırılmasına görə cinayət işi qaldırılıb. Ermənistan mediasında bu barədə qısa məlumat verilib. Qeyd olunur ki, söhbət güllə istehsal edəcək zavodun tikintisi ilə bağlı yaranan vəziyyətdən gedir. Rusiya mediası isə tenderdən kənarlaşdırılan ORSIS şirkətinin mövqeyini dərc edib.

# Ermənistanın daha bir anti-Rusiya gedişinin üstü açıldı - Rusiya şirkəti patron zavodu tikintisinə buraxılmadı

## Azad İsazadə: "Böyük ehtimalla, burada başqa səbəb var və o siyasidir"



Şirkətin təmsilçisinin sözlərinə görə, Ermənistan 2019-cu ilin may ayında öz tarixi ərzində ilk dəfə tender elan edib və bir neçə milyon dollar həcmində hərbi texnika almaq istəyini açıqlayıb. Müsabiqənin şərtlərinə yalnız Rusiyanın ORSİS şirkəti əməl edə bilib. Lakin gözlənilmədən tender bağlı elan edilib və bu barədə şirkətə heç bir məlumat verilməyib. Bundan sonra ORSİS-nin maraqlarını müdafiə edən hüquqşünaslara Ermənistan Cinayət Məcəlləsinin "vəzifə səlahiyyətlərinə səhlənkar yanaşma" maddəsi ilə cinayət işi açılması ilə bağlı fəaliyyətə keçməleri tapşırılıb. Nəticədə Ermənistan CM-nin 376-cı maddəsi (vəzifə səlahiyyətlərinə səhlənkar yanaşma) ilə cinayət işi başlanıb. Şirkət rəsmisinin sözlərinə görə, təmsil etdiyi qurum artıq Ermənistanın Rusiyadakı səfirliyinin hərbi attaşesinə müraciət edərək, silah çatdırılması ilə bağlı yaranan problemə aydınlıq gətirilməsini tələb edib.

ORSİS-dən onu da bildiriblər ki, onlar "Sənaye texnologiyaları" şirkətinə daxil olan qurum kimi illərdir Ermənistana silah, güllə, optik cihazlar çatdırır: "Bütün xidmətlərimizdən sonra bizim şirkət birdənbirə Ermənistan Müdafiə Nazirliyinin "qara siyahı"sına düşüb ".

Şirkət nümayəndəsi onu da deyib ki, Ermənistan tərəfi onların zəruri sənədləri təqdim etmədiyini iddia edir: "Lakin bu məlumatlar həqiqətə uyğun deyil. Ermənistan Müdafiə Nazirliyinin son həftələr ərzində tələb etdiyi bütün sənədləri vaxtında təqdim etmişik. Onlar isə bizə bildiriblər ki, guya silahların təhvil verilməsi və alınması ilə bağlı aktları verməmişik. Lakin bunların hamısı əsassızdır. Ermənistanın bizi "qara siyahı"ya salmasının heç bir hüquqi və digər əsası yoxdur".

Şirkət nümayəndəsi bəyan edib ki, yaranmış vəziyyət Ermənistanda güllə istehsal edəcək zavodun tikilməsi ilə bağlı layihənin taleyini də sual altında qoyur: "Bu müəssisəyə bir neçə milyon ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulurdu".

Ermənistan Müdafiə Nazirliyi sözügedən məsələ ilə bağlı cinayət işinin başlandığını təsdiq edib. Ermənistan MN-dən bildiriblər ki, istintaq işini yekunlaşdırdıqdan sonra ictimaiyyətə geniş məlumat verilərək.

### "Rusiya şirkətinin oyundan kənar salınması ABŞ təsiri ilə bağlıdır"

Ermənistanın güllə istehsal edəcək bir Rusiya şirkəti ilə bu cür davranışı nəyi deməyə əsas verir?

Hərbi ekspert Azad İsazadə qəzetimizə açıqlamasında bildirdi ki, bu məlumatla o da tanışdı: "Ancaq məlumatda bir natamamalıq hiss etdim. Sanki ortada olan əsl səbəbi demək istəmirlər. Söhbət adi bir sahəni əhatə edən tenderdən getsəydi biz burda ilkin olaraq korrupsiya amilini qabarda bilərdik. Adətən tenderlərdə belə qaranlıq məqamlar çox olur. Söhbət "otkat" və ya udan firmanın sifarişçiyə əlavə vəsait ödəməsindən gedir. Ancaq burda düşünmürəm ki, bu cür amil başlıca rol oynasın. Çünki söhbət starteji olan hərbi sahəni əhatə edən bir zavodun tikintisindənn gedir. Ermənistan müharibə şəraitində yaşayır. Ölkənin belə bir zavoda ehtiyacının olduğu şübhəsizdir. Rəsmi İrəvanın öz gücünə belə bir layihəni maliyyələşdirə bilməz. Ordakı iqtisadi vəziyyət hamıya bəllidir. Adətən belə hərbi layihələr və silah alışı ilə bağlı məsələdə onlar Rusiyanın xidmətindən istifadə edirlər. Yəni Rusiya həmin pulu kredit şəklində Ermənistana verir. Ancaq bu həmin məsələyə bənzəmir. Çünki belə olsaydı, Ermənistan şirkəti kənarda saxlamazdı. Tenderdə cəmi bir şirkət iştirak edibsə, deməli, Ermənistanın əvvəl Rusiya şirkətinin iştirakına razılığı olub. Əks halda onu heç tək firma kimi tenderdə iştiraka buraxmazdılar. Deməli, burada hansısa başqa motiv var. Hiss olunur ki, şirkət bundan bərk qəzəblənib və məsələnin hətta hüquq müstəvisində araşdırılmasına səy göstərir. Böyük ehtimalla, burda başqa səbəb var və o siyasidir. Bilirsiniz ki, ABŞ Rusiyanın bir çox silah istehsal edən firmalarının adını sanksiya siyahısına salıb.

Ola bilər ki, Rusiyanın həmin şirkətinin də adı orda var. Layihəni Rusiya maliyyələşdirmirsə, deməli erməni diasporu donor kimi çıxış edib. Ermənistanın bu cür iri layihələrini adətən onlar maliyyələşdirirlər. Yəqin ki, ABŞ-ın təzyiqi ilə onlar Ermənistanın qarşısında bu şərti qoyublar. Güman edirəm ki, Rusiya şirkətinin oyundan kənar salınması ABŞ təsiri ilə bağlıdır. Yaxın günlərdə bunun detalları tam üzə çıxmış olacaq".

**Məhəmmədəli QƏRİBLİ**

---

Fransanın Biarrits şəhərində keçirilən G7 sammiti rəsmi Bəyannamə olmadan başa çatıb. Belə ki, Fransa, Almaniya, ABŞ, Yaponiya, İtaliya, Kanada və Böyük Britaniyanın liderlərinin yekun tədbirində - işgüzar şam yeməyində ABŞ prezidenti Donald Tramp Rusiyanın iştirakı ilə G8 formatına qayıtmağı tələb edib.

# Rusiya məsələsi böyük 7-ləri parçaladı... Makron, Merkel, Conson Trampa qarşı...

## Əli Orucov: "Almaniya ilə Fransa Rusiyanın Ukrayna məsələsində barışçıl mövqe tutacağına əmin deyil"



Bu zamanTramp və onun təşkilatdan olan həmkarları arasında mübahisə yaranıb. The Guardian qəzetinin diplomatik mənbələrə istinadla yaydığı xəbərə görə, onun bu təklifini Avropa ölkələrindən yalnız İtaliya dəstəkləyib. Yaponiyanın Baş Naziri Sindzo Abe isə bu məsələdə neytral qalıb. Fransa, Almaniya və Böyük Britaniya dövlət başçıları Trampın təklifinin əleyhinə olublar. O cümlədən Avropa Şurasının rəhbəri Donald Tusk G8 formatının bərpasına qarşı çıxıb. Nəticədə tərəflər arasında qızğın diskussiya başlayıb. Məlumata əsasən, Tramp həmkarlarının fikirləri ilə razılaşmayıb. Tramp onu əsas gətirib ki, İran, Suriya və Şimali Koreya ilə bağlı problemlərin həllində Moskva mütləq iştirak etməlidir. Bu səbəbdən Rusiyanın təşkilatda iştirakının vacib olduğunu bildirib.

Görünən odur ki, Rusiya məsələsi G7-də təmsil olunanları parçalayıb. Bunun nəticəsidir ki, sözügedən böyük dövlətlər arasında görüş rəsmi Bəyannamə olmadan başa çatıb. Heç şübhəsiz ki, Rusiya ilə bağlı yaşanan fikir ayrılıqları beynəlxalq münasibətlərə də təsirsiz ötüşməyəcək. Bütün hallarda aparıcı ölkələrin təmsil olunduğu sözügedən toplantıda yaşanan fikir ayrılıqlarını və bunun yaratdığı parçalanmanı ekspertlər necə şərh edir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, G7 görüşündə Rusiya ilə bağlı fikir ayrılıqlarının yaşanacağı gözlənilən idi: "Ona görə ki, Rusiya Ukrayna məsələsində güzəştə getmir. İlk dəfə idi ki, tarixdə inkişaf etmiş ölkələrin liderləri yekun bəyannamə imzalamadı. Rusiyanın birliyə qaytarılması məsələsində də ciddi fikir ayrılıqları oldu. Almaniya və Fransa Parisdə keçiriləcək "normand görüşü"nə hazırlıqlar üzərində işləyir. Almaniya kansleri Angela Merkelin sözlərinə görə, Paris ilə Berlin yaxın zamanda danışıqları təşkil etməyə çalışacaqlar. Kansler danışıqlarla bağlı gözləntilərini gizlətməyib. Merkel qeyd edib ki, Ukraynanın yeni prezidenti Vladimir Zelenski ilə ölkənin şərqində böhranın həll edilməsi üçün Minsk sazişinin həyata keçirilməsi mümkündür. Onun fikrincə hər iki tərəf istəkli olsa, irəliləyiş əldə etmək üçün şansımız var. Bütün bunlara baxmayaraq, Almaniya ilə Fransa Rusiyanın Ukrayna məsələsində barışçıl mövqe tutacağına əmin deyil.

### "Məlum məsələ ilə bağlı yaşanan fikir ayrılıqları dünyadakı bir sıra münaqişələrin həllinə mənfi təsir göstərəcək"

Ona görə də bu dövlətlər Rusiyanın G7 formatına qayıtmasına qarşı çıxdılar. Böyük Britaniyanın da Rusiya ilə münasibətləri yaxşı deyil. Hesab edirəm ki, məlum məsələ ilə bağlı yaşanan fikir ayrılıqları dünyadakı bir sıra münaqişələrin həllinə mənfi təsir göstərəcək. Rusiya ilə mövcud olan fikir ayrılıqları bir qədərdə dərinləşə bilər. Bütün bunlar ondan xəbər verir ki, Avropa İttifaqı Rusiya məsələsində yekdil deyil",

**Vidadi ORDAHALLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ münaqişəsinin həlli üçün əlverişli məqam yetişir - Ermənistanın Rusiya və ABŞ siyasətində iflas əlamətləri güclənir...

**İşğalçı Ermənistanın, digər sahələr kimi, xarici siyasətinin də sürətlə iflasa uğramasının Dağlıq Qarabağ münaqişəsinə yaxın tezlikdə ciddi təsir göstərəcəyinə dair ermənilərin öz aralarında həyəcan təbili çalanların sayı artıb. Hesab olunur ki, bu gedişlə Ermənistanın bütün hamiləri ondan üz döndərəcək və belə vəziyyətdə Azərbaycan asanlıqla zəbt edilmiş ərazilərdən erməni silahlı qüvvələrini çıxaracaq.**

Bu zaman Ermənistanın Azərbaycana qarşı hansısa ciddi müqavimət göstərməsindən isə söhbət gedə bilməz.

Erməni mediası da yazır ki, bu gün Rusiya və Qərbin, faktiki olaraq, Ermənistandan üz döndərməsi ölkəni daha ağır duruma salır. Bu xüsusda ittihamlardan yayınmağa çalışan baş nazir Nikol Paşinyan isə cəmiyyətin diqqətini ikinci dərəcəli məsələlərə yönəltməyə çalışmaqla vəziyyətdən xilas olmağa cəhd edir. Həqiqətən də diqqət yetirdikdə bəlli olur ki, Paşinyan Ermənstanı daha çox emosional, cəmiyyətin diqqətini yönəldə biləcək məsələlərlə idarə edir. Ölkədaxili problemləri həll etməkdə çətinlik çəkən, işğalçı siyasəti davam etdirən Nikol Paşinyan Ermənistan cəmiyyətinin fikrini iqtisadi, sosial problemlərdən aidiyyəti olmayan məsələlərə yönəltməklə məşğuldur. Məsələn, o özünü hakimiyyəti rusiyayönlü Robert Köçəryan və Serj Sarkisyanın adamlarından, Qarabağ mafiyasından təmizləyirmiş kimi aparır. Bununla həm də Qərbə Moskvaya qarşı olduğunu göstərməyə səy edir. Amma eyni zamanda Rusiyanı da ölkənin əsas müttəfiqi elan edir. Bu durumda erməni mediası bildirir ki, indiki hakimiyyətin strategiyası, proqramı və konsepsiyası yoxdur. Eləcə də hökumətin xarici siyasət kursunda müəyyənlik, davamlılıq yox dərəcəsindədir. Paşinyan həm Qərbə, həm də Rusiyaya yarınmağa, nəticədə hər iki tərəfdən başının sığallamasına nail olmağa çalışır. Amma onun bu gedişləri nə Rusiyada, nə də Qərbdə təqdir olunur. Erməni mediası yazır ki, hakimyyətin bu davranışının əziyyətini Ermənistan, onun əhalisi çəkir. Çünki konkret mövqeyi olmayan Paşinyan hakimiyyətinə kənar təzyiqlər artır. Məsələn, məlumdur ki, 2020-ci ildən Rusiya Ermənistana satacağı təbii qazın min kubmetrinin qiymətini 165 dollardan 220 dollaradək qaldırmaq istəyir. Qərb də ölkəyə hansısa vəsait ayırmır. Bütün bunlar Ermənistanın xarici siyasətinin ciddi böhrana uğradığını aydın nümayiş etdirir. "Tert.am" portalına açıqlamasında erməni politoloq Hagik Ambaryan da etiraf edir ki, Ermənistan xarici siyasət sferasında zəifdir və hakimiyyət xarici siyasət məsələlərini buraxıb, daha çox daxili siyasət məsələləri, yalançı gündəmin formalaşdırılması ilə məşğuldur: "Belə vəziyyətdə Ermənistanı itirir, Dağlıq Qarabağ məsələsində zəif mövqe sahibi olur. Bundan irəli gəlir ki, Qarabağla dostluq münasibətləri quran Fransa şəhərləri mövcud kontraktların hamısını ləğv etdilər, ABŞ Konqresində Qarabağa yardımın verilib-verilməməsi müzakirə edilir, Moskva ilə münasibətlər qaydasında deyil. Biz Türkiyənin regiona münasibətdə ambisiyalarını görməzdən gəlirik. Problemlər çoxdur, amma hakimiyyət üçün əsas hakimiyyətini qorumaqdır. Paşinyan hakimiyyətə təcrübəsiz komandasıyla gəldi, səhvlər buraxdı və indi bundan onun opponentləri yararlanır.

Xarici işlər naziri Zöhrab Mnatsakanyan daha çox partizan stilində çalışır. Buna görə mediada Mnatsakanyandan sonra müdafiə naziri, polis rəisi və Milli Təhlükəsizlik Xidməti rəisi peyda olub. Diplomatiya ictimailiyi sevir. Ona görə də Azərbaycan və Türkiyə daha aqressiv və açıq diplomatiya tətbiq edirlər. Mnatsakanyanın işlərinin nəticələrini göstərməsi yaxşı olardı. Şarl Aznavur ölən kimi Fransa məhkəmələri Qarabağla bağlı imzalanan memorandumları ləğv etdi". Ambaryan Paşinyanın ən rusiyayönlü siyasətçi olduğunu, amma Moskvanın hələ ona inanmadığını deyib: "Ehtiyatlı olmağı məsləhət görərdim. Biz Rusiyadan Ermənistanda baza saxlamağı xahiş edirik. Bütün keçmiş prezidentlər yaxşı bilirlər ki, Ermənistan bu bazadan imtina edəcəyi halda hansı çağırışlarla üz-üzə qala bilər. Rusiya və Rusiya prezidentinin ünvanına sərt bəyanatlar səsləndirəndə heç kim unutmasın ki, rifahımız bu ölkədən asılıdır". Ermənistanın "Qraparak" qəzeti də məsələyə eyni prizmadan yanaşaraq yazır ki, Paşinyanın səhvləri nəticəsində Moskva İrəvana münasibətini dəyişib. Nəşrə görə, Rusiya Baş Prokurorluğu Ermənistan Prokurorluğunun keçmiş millət vəkili, Məhkəmə İşləri İcbari İcra Xidmətinin keçmiş rəhbəri, general Mihran Poqosyanın istintaq məsuliyyətinə cəlb edilməsi məqsədilə İrəvana təhvil verilməsi tələbini rəsmi şəkildə rədd etməsi bunun real təsdiqidir: "Ermənistan Baş Prokurorluğunun Mihran Poqosyanın cinayət təqibi üçün təhvil verilməsi tələbi Rusiya Baş Prokurorluğu tərəfindən 22.01.1993-cü il tarixli "Mülki, Ailəvi Cinayət İşlərində Hüquqi Yardım və Hüquq Münasibətləri Qanunu"nun 19-cü maddəsinin müddəaları əsas götürülərək rədd edilib. Üstəlik, Poqosyanın cinayət məsuliyyətinə cəlb edilməsi üçün təhvil verilməsinə dair Ermənistan Baş Prokurorluğunun müraciətinin rədd edilməsinin əsası barədə hər hansı infomasiya təqdim edilməyib. Ermənistan Baş Prokurorluğunun Rusiya Baş Prokurorluğundan Poqosyanın təhvil verilməsinin rədd edilməsi səbəbləri ilə bağlı dəqiq cavab tələb etməsi hələ yaxşı haldır. Bundan daha pisini də gözləmək lazımdır".

"Qraparak" yazır ki, yaranmış vəziyyət Ermənistan üçün həddən artıq təhqiramizdir: "Əslində nə baş verib? Ermənistanla strateji müttəfiq olmaqdan başqa bir sıra ikitərəfli öhdəlikləri də olan, o cümlədən AİƏT, KTMT kimi beynəlxalq təşkilatlarla bağlı münasibətlərə malik Rusiya bir sıra sənədlərdə əksini tapan müddəaları yerinə yetirməyərək, bir sıra cinayətlərdə ittiham edilən şəxsi Ermənistana təhvil vermir. Buna baxmayaraq, Gümrüdə tam bir ailəni məhv edən rus hərbçini ermənilər təhvil verdilər. Rusiyanın qeyri-səmimi və dost olmayan davranış tərzinə ilk emosional reaksiya ola bilər. Hazırda bədnam real siyasətlə üz-üzə qalmışıq. Məlumdur ki, Kreml çoxdan strateji müttəfiqlik, bərabərlik prinsiplərinə və bu kimi digər münasibətlərə tüpürüb. Tarix çoxdan sübut edib ki, Moskva yalnız bir dildə başa düşür və əsas götürür, nə qədər ki gücüm var, baltalayacam, bir o qalmışdı "çuriklərə" nə isə izah edim və sairə... İsmarıc isə həddindən artıq aydındır. Rusiyada Ermənistanın sabiq iqtidarına gizli kömək edilməsindən, inqilabçıların cəzadan xilas olmasına yardım edilməsindən imtina edilməyib. Burada Kreml üçün ciddi arzuolunan revanşın gözlənildiyi, yaxud İrəvanın yeni hakimiyyətindən güzəştlər qoparılması məqsədi var. Hər iki halda bu məqsədlərin mahiyyətinin dərinliyini öyrənməyə dəyməz, deyildiyi kimi, siyasətdir. Necə deyərlər, buradan müttəfiqlik və ya diplomatiya qoxusu gəlmir. Ən həssas vəziyyətdə olduğu halda belə, İrəvanın da burada düşünəcəyi çox şey var. Məsələn, elə Qarabağ məsələsində. Türkiyə və Azərbaycanla yaxınlaşma kursu götürən Moskva sabah İrəvandan tələb edə bilər ki, Azərbaycanın istədyi ərazilər geri qaytarılsın. Bunlar istisna deyil və Bakı bu istiqamətdə fəal çalışır. Xarici siyasətdə yol verilən səhvlər isə Bakının manevr imkanlarını artırır".

Rusiya ilə yanaşı, Qərb cəbhəsində, xüsusilə ABŞ-la münasibətlərdə də ciddi problemlərin hökm sürməsi heç kimə sirr deyil. "Eurasianet" portalı yazır ki, bunu ABŞ-ın Ermənistana maliyyə yardımlarını azaltması, əvəzində Azərbaycanla əməkdaşlığı genişləndirməsi də aydın surətdə təsdiq edir. Nəşr qeyd edir ki, ABŞ bölgədəki strateji müttəfiqi kimi Azərbaycanın hərbi qüdrətini gücləndirmək üçün tədbirlər görür və bu da erməniləri ciddi narahat edir. Bildirilir ki, ABŞ hər il müxtəlif dövlət kanalları vasitəsilə Azərbaycan Ordusuna getdikcə daha çox hərbi-texniki dəstək verir. Xüsusilə 2019-cu ildə Vaşinqton Xəzər dənizində təhlükəsizliyi gücləndirmək üçün ölkənin dəniz qüvvələrinə 100 milyon dollar məbləğində maliyyə dəstəyi nəzərdə tutur. Pentaqonun Konqresə verdiyi məlumata görə, ABŞ Müdafiə Nazirliyi 2018-ci maliyyə ilində rəsmi olaraq Azərbaycana 56.9 milyon dollar, 2019-cu ildə isə sərhəd və gömrük xidmətlərinin gücləndirilməsi üçün 42.9 milyon dollar təklif edib. Bütövlükdə isə, gələcəkdə daha çox kömək gözlənilir - həm əvvəllər göstərilənlərlə müqayisədə, həm də bölgənin digər ölkələrinə göstərilən yardımı üstələməsi baxımından. ABŞ Beynəlxalq Siyasət Mərkəzinin analitiki Kristina Aravian qeyd edir: "Ola bilsin ki, builki proqramın Azərbaycan üçün xərclədiyi real məbləğ 42,9 milyon dollardan çox, hətta ABŞ-ın bölgədəki ən sadiq və gözəçarpan tərəfdaşı olan Gürcüstana göstərilən yardımdan da artıq olacaq". Analitik qeyd edir ki, son iki ildə Azərbaycan ABŞ-ın terrorizmlə mübarizədə əsas strateji tərəfdaşları olan Livan və İordaniyadan sonra üçüncü ən böyük yardım alıcısıdır. Mövcud maliyyələşdirmə transmilli təhdidlərə qarşı və Azərbaycanın sabitliyini təşviq, sərhədlərinin təhlükəsizliyini təmin etmək, potensiallarını artırmaq üçün təhlükəsizlik qüvvələrini dəstəkləməyə, terror əməliyyatlarını müəyyənləşdirməyə və qarşısını almağa, həm də kütləvi silahların yayılmasına qarşı mübarizəyə yönəldilib. Ümumilikdə isə ABŞ-la hərbi-texniki əməkdaşlığın inkişafı Azərbaycanın nə qədər etibarlı tərəfdaş olduğunun göstəricisidir. Amma Ermənistana gəlincə, burada vəziyyət fərqlidir və ABŞ sözügedən ölkəyə yardımlarını azaldır. Ermənilər etiraf edir ki, bu hal ABŞ-ın Qarabağ məsələsinə əd yanaşmasını ortaya qoya biləcək indikator sayılmalıdır. Beləliklə, qeyd edilənlərdən aydın görünür ki, Ermənistanın Rusiya və ABŞ-a yönəlik siyasəti iflasa uğrayıb və yaxın tezlikdə düzəlməsi də gözlənilmir. Bu durum isə Azərbaycanın maraqlarına cavab verərək, Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərə biləcək faktorlardan sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Bankların kredit sahəsində yaratdığı böyük problem...

**Xarici valyutada olan problemli kreditlərin dövlətin müdaxiləsi ilə həll edilməsindən sonra bank sektorunda yenidən müşahidə edilən hallardan biri istehlak kreditlərinin miqyasında sürətli artımdır. Ekspertlər bu vəziyyətin narahatedici olduğunu bildirərək, baş verənlərin yenidən problemli kreditlərin ümumi miqdarında artıma səbəb ola biləcəyinə dair xəbərdarlıqlar edir.**

Bununla belə, Mərkəzi Bankın açıqladığı məlumatlardan aydın olur ki, ötən ildən etibarən ev təsərrüfatlarına verilən istehlak kreditlərinin həcmi artır. Hesablamalar göstərir ki, cari ilin 6 ayında kreditlər 3,6 faiz artıb. Lakin bu zaman istehlak kreditləri 9 faizdən çox artıb. Halbuki, hökumətin xüsusi maraqlı olduğu biznes kreditləri, real sektorda kreditlər 0,3 faiz azalıb.

Məlumat üçün bildirək ki, 2019-cu ilin iyun ayında kredit qoyuluşları may ayı ilə müqayisədə 284,6 milyon manat və ya 2,1% artaraq 13 milyard 483 milyon manata çatıb. Artımın yarısı istehlak kreditləri ilə bağlıdır. Cəmi kredit qoyuluşlarına biznes kreditləri və istehlak kreditləri daxildir. İyun ayında ev təsərrüfatlarına verilən kreditlər, əsasən istehlak kreditləri 143,3 milyon manat artaraq 5 milyard 802 milyon manata yüksəlib. Ev təsərrüfatlarına verilən kreditlərin cəmi kredit qoyuluşlarında xüsusi çəkisi 43%-ə çatıb. 2018-ci ilin iyun ayının sonunda bu nisbət 35,8%, 2018-ci ilin sonunda 40,9% təşkil etmişdi. Cari ilin ilk yarısında cəmi kredit qoyuluşları 462,3 milyon manat, ev təsərrüfatlarına verilən kreditlər isə 482,2 milyon manat artıb. Cəmi kredit qoyuluşlarının onun tərkib hissəsi olan ev təsərrüfatlarına verilən kreditlərdən az artması ilin ilk yarısında biznes kreditlərinin azaldığına işarədir.

İndilikdə istehlak kreditlərinin artması bütövlükdə əhalinin borc yükünün artması, həm də bank sektorunun öz portfelində bunun 50 faizə yaxınlaşması ciddi narahatlıq yaradır. Ekspertlər bildirir ki, əslində, yaranmış vəziyyətdə banklar onlara edilən köməkdən sui-istifadə edir. Çünki son dövrlər dövlət tərəfindən həyata keçirilən tədbirlərin əsas hissəsi ona yönəlib ki, banklar daha çox özəl sektor, real sektorla işləsinlər. Yəni banklar sahibkarlara vəsait versinlər, daha çox qeyri-neft sektoruna investisiya yatırsınlar. Amma banklar sahibkarlıq subyektlərinə müəyyən qədər vəsait versələr də, daha çox yüksək faizlə kredit verməkdə maraqlıdırlar. Bunun üçün ən yaxşı bazar sırf istehlak kreditləridir. Elə bu səbəbdəndir ki, istehlak kreditlərinin həcmi ümumi iqtisadiyyata qoyulan kreditlərin həcmi içərisində 40 faizi ötmək üzrədir. Kənd təsərrüfatına, sənayeyə qoyulan kreditlər müvafiq olaraq 3-5 faiz və 12 faiz arasında dəyişir. Bu da onu göstərir ki, bankların sahibkarlıq subyektlərinə marağı azdır. Banklar daha çox vəsait əldə etmək üçün istehlak kreditləşməsinə yönəlirlər. Halbuki, bütün bunların həm əhali, həm də elə bankların özləri üçün mənfi təsirləri kifayət qədərdir.

Hələ 2014-cü ildən sonra kommersiya banklarının qəfildən ucuzlaşan neft qiymətlərinə, ardınca yaşanan devalvasiyaya uyğun reaksiya verə bilməməsinin səbəblərindən biri məhz onların daha çox istehlak kreditləşməsi üzərində öz işini qurmağa çalışması idi. Bu da nəticədə banklarda problemli kreditlərin həcminin artmasına gətirib çıxardı. Ekspertlər bildirir ki, əvvəlki kimi bankların istehlak kreditlərinə marağının artması daha qısa zamanda gəlir əldə etmək istəyi ilə bağlıdır. Yəni, banklar çalışır ki, daha qısa zamanda gəlir əldə etsin. Bu da nəticədə istehlak kreditləşməsinə marağın artmasına gətirib çıxardır. Bu, eyni zamanda real sektorun kreditlərə olan tələbinin ödənilməsinə imkan vermir və real sektor praktiki olaraq tələb olunan maliyyəni digər mənbələrdən əldə etmək məcburiyyətində qalır. Ona görə də istehlak kreditlərinin həcminin artması risqlidir, arzuolunan deyil. Bu zaman xarici şoklara banklar reaksiya verə bilmir, əhalinin gəlirlərinin strukturunda dəyişiklik baş verdiyi halda problemli kreditlərin həcminin artması müşahidə olunur. Bütün bunlar ümumi iqtisadiyyat üçün də ciddi təhdid yaradır. Elə bu səbəbdən, ekspertlərin fikrincə, yaranmış durumda Maliyyə Bazarlarına Nəzarət Palatası və Mərkəzi Bank tərəfindən kredit məsələsinin tənzimlənməsinə ehtiyac var. Ən əsaıs isə real sektora daha çox kreditlərin təklif edilməsi üçün təşviqedici tədbirlərin gücləndirilməsi vacibdir. Əks halda, istehlak kreditləşməsi yenidən ciddi təhdidə çevrilə bilər.

Hələlik müşahidə olunan budur ki, istehlak krediti götürən şəxslərin sayı artır və 40 faizi keçir. İqtisadçılara görə, istehlak kreditlərinin artım dərəcəsinin 40 faizi keçməsi təhlükəli haldır. İlk növbədə o baxımdan ki, bu tip kreditlər bank sektorunda risqləri artırır. Hesab olunur ki, belə davam edərsə, problemli kreditlərin həcmi arta bilər. Bu baxımdan prosesin tənzimlənməsinə ehtiyac var. Ekspertlərin fikrincə, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası istehlak kreditinin verilmə qaydası ilə bağlı meyarlar müəyyənləşdirə bilər. Əks halda müşahidə olunan tendensiya ondan ibarətdir ki, banklar əhaliyə istehlak kreditlərinin verilməsinə üstünlük verdikləri və iş adamlarını maliyyə sıxıntısında saxlamağa çalışdıqları zaman özləri də maliyyə risqləri ilə üzləşirlər.




**Bu meyl isə bank sisteminin sabitliyini təhdid edir. Belə vəziyyət bütövlükdə iqtisadiyyat üçün böyük təhlükə sayılır. Onu da vurğulayaq ki, Azərbaycan iqtisadiyyatı üçün biznesə kredit qoyuluşu istehlak sektoruna kredit qoyuluşundan daha önəmlidir. Çünki istehlaka yönəldilən vəsait daha çox idxalı artırdığı halda, biznes sektoruna ayrılan kreditlər yeni istehsal sahələrinin yaradılmasına, ixracın artırılmasına kömək edir. Bu baxımdan biznes sektoruna kredit qoyuluşunun artması vacib sayılır.**

***Tahir TAĞIYEV***

# Qeyri-ənənəvi oriyentasiya üzrə "ixtisaslaşmış" ilk qadınlar da ermənilərdən olub

***Həyat Məhərrəmova:** "Tarixi mənbələrdə qeyd edilir ki, Anahidin şərəfinə ermənilər yaşayan yerlərdə, müxtəlif ərazilərdə ucaldılan və yüzlərlə erməni qızlarının, gənc oğlanların saxlandığı məbədlər dünyanın müxtəlif ölkələrindən gələn kişilər tərəfindən ziyarət edilirmiş"*

**Bu gün qloballaşmanın dünyanı təhdid etdiyi gizlin deyil. Qloballaşma dalğasının cəmiyyətlərə gətirdiyi neqativ nəsnələr o qədər çoxdur ki, saymaqla bitmir. Müasir dünyanı narahat edən məsələlərdən biri cinsi oriyentasiyasında problem olan insanlardır ki, günümüzdə onların, onlar kimilərinin təbliğatı daha çoxdur. Cəmiyyətləri içindən silkələyən bu məsələyə ən müxtəlif münasibətlər sərgilənir.**

Hazırda lezbiyanlar, geylər, biseksual və translar öz cinsi orentasiyalarını gizlətmir, bunu daha açıq şəkildə ifadə edirlər. Hətta dünyada LGBT deyilən bir nəsnə də formalaşdırılıb ki, bu da həmin oriyentasiyanı bölüşən insanların beynəlxalq ittifaqıdır.

Geylərin, lezbiyanların harada meydana gəldiyi son zamanlar daha çox müzakirə edilir. Bu arada Ukrayna telekanallarında nümayiş olunan verilişlərdən birində belə bir informasiya səsləndirilib ki, dünyada ilk lezbiyan, gey, biseksual və transgenderlər (LGBT) ermənilərdən əmələ gəlib. Bu məlumatı açıqlayan şəxsin gey oriyentasiyasına mənsub "dindar" oluğu açıqlanıb. "Dindar" fikrini konkret faktlarla sübut edib. O qeyd edib ki, bu, ermənilərin dinində də əks olunub.

Məlumat üçün bildirək ki, görkəmli alman filosofu, sahibkarı, markizmin yaradıcılarından biri, Karl Marksın yaxın dostu və bir sıra əsərlərinin həmmüəllifi Fridrix Engels özünün "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" əsərində yazır ki, fahişəliyin yaradıcısı ermənilərdir və dünyada ilk dəfə fahişəliklə ermənilərin ilahiləşdirdiyi, hətta tanrıça hesab etdikləri Anahid məşğul olub. O qeyd edib ki, Anahidin şərəfinə tikilən məbəddə hay qızları fahişəliklə məşğul olub.

Böyük yunan tarixçisi və coğrafiyaçısı Strabon da Engelsdən əsrlər əvvəl erməni qızlarının fahişəliklə məşğul olduqlarını qeyd edib. "Bu ölkənin qanunlarına görə, adlısanlı ailələrin qızları yalnız ilahənin məbədində uzun müddət ərzində fahişəliklə məşğul olduqdan sonra ərə gedə bilərdilər. Bundan sonra onların ərə getməsində heç bir problem olmurdu". Strabon belə yazıb.

Qeyd edək ki, Anahit və ya Anais erməni mifologiyasında bərəkət, sağlamlıq, zəka, təbiət və fahişəlik ilahəsidir. Erkən dövrlərdə Anahit müharibə ilahəsi sayılıb.

E.ə. III əsrdən başlayaraq b.e. I əsrinə, yəni xristianlığın yayılmasına qədər bu ilahə Mitra ilə birlikdə ermənilərin əsas tanrıçası olub ki, bir çox mütəxəssislər həmin dövrü Anahit məbədlərinin təsiri ilə fahişəliyin geniş yayılması dövrü kimi xarakterizə edir.

Tarixçilər qeyd edirlər ki, qədim mənbələrdə fahişəliyin ermənilər tərəfindən, daha dəqiq desək, erməni qızı Anahid tərəfindən bütün dünyaya yayılması haqqında məlumatlar var.

Tarixçi Həyat Məhərrəmova bizimlə söhbətində bildirdi ki, tarixən nəinki erməni qızları, eləcə də erməni oğlanları fahişəliklə məşğul olublar. O vurğuladı ki, hələ qədim dövrlərdən bu kimi hallar mövcud olub. Onun sözlərinə görə, erməni müəllifləri Anahiti daha çox Afrodita və Artemida ilə müqayisə etsələr də, adları çəkilən iki ilahədən fərqli olaraq, Anahit daha çox fahişəlik ilahəsi kimi şöhrət tapıb. "Qeyri-ənənəvi oriyentasiyalı insanlar həqiqətən də cəmiyyətlərin bəlasına çevrilib. Ukrayna televizyasında çıxış edən şəxsin ilk lezbiyanların, geylərin və sairin ermənilər olduğunu deməsi əsassız deyil. Bu barədə tarixi mənbələrdə kifayət qədər məlumatlar var. Bu barədə Strabon da yazıb, başqa dünya tarixçiləri, filosofları da öz əsərlərində qeyd ediblər. Ermənı (hay) qızı Anahid bütün dünyada fahişəlik "simvolu" kimi qəbul edilir. Haylar özləri də Anahidin fahişəliyindən və onun məbədindəki fahişələrdən fəxrlə danışırlar. Əxlaqızlıqdan yalnız ermənilər bu şəkildə danışa bilərlər. Tarixi mənbələrdə qeyd edilir ki, Anahidin şərəfinə ermənilər yaşayan yerlərdə, müxtəlif ərazilərdə ucaldılan və yüzlərlə erməni qızlarının, gənc oğlanların saxlandığı məbədlər dünyanın müxtəlif ölkələrindən gələn kişilər tərəfindən ziyarət edilirmiş. Anahitin fahişəlik ilahəsi olması və onun şərəfinə inşa edilmiş məbədlər haqqında maraqlı diqqətçəkən məlumatlar çoxdur. Burdan da göründüyü kimi, qədim dövrlərdə yalnız hay qızları deyil, hay oğlanları da fahişəliklə məşğul olub və onlar kişilərə, oğlanlara intim xidmət göstəriblər. Strabon bu barədə daha çox yazıb. "Anahitə ibadət edənlər fahişəliyə qurşanmışdılar ... həmin vaxt "Böyük Ermənistan" hökmdarı Trdat Anahitə nəcib qadın, erməni xalqının isməti, şöhrəti və canlandırıcısı, böyük Aramazdın qızı və arvadı kimi həmd edirdi"-deyə yazır. Başqa bir mənbədə yazılır ki,



*"Göründüyü kimi, qədim dövrlərdə yalnız hay qızları deyil, hay oğlanları da fahişəliklə məşğul olub və onlar kişilərə, oğlanlara intim xidmət göstəriblər"*

Navasad ayında keçirilən illik mərasimlər zamanı ilahə Anahitin şərəfinə xüsusi bayramlar və kef məclisləri təşkil edilirdi ki, bu məclislər də ən böyük kef məclislərindən hesab edilirdi. İldə bir dəfə bir ay müddətində keçirilən bu cür məclislər ermənilərin (hayların) bir millət kimi çoxalmasında və etnogenezinin formalaşmasında, mümkündür ki, müəyyən rol oynamışdır. Yəni bu da ermənilərin müxtəlif xalqlardan törədiyini deməyə əsas verir"-deyə tarixçi qeyd etdi.

Məlumat üçün bildirək ki, müxtəlif qaynaqlarda Anahit məbədlərinin təsvirləri də qorunur. Mənbələrdə qeyd olunur ki, onun şərəfinə ucaldılmış məbəd Babilistandakı ilahə Melitanın məbədini xatırladır bildirilur. Məbədin ətrafı hündür hasara alınmış çəmənliklərdən ibarət idi, burada həyatını bu ilahəyə həsr etmiş qadınlar yaşayırdı. Məbədə yalnız əcnəbilər buraxılırdı. Məbədin həm qadın, həm də kişi kahinləri ən varlı və tanınmış erməni ailələrindən seçilirdi. Onların ilahənin məbədində xidmət etmə müddətini isə, bir qayda olaraq, valideynləri müəyyənləşdirirdi. İlahəyə xidmət vaxtlarını bitirən qadınlar məbədi tərk edərkən bütün qazandıqları pulu məbəddə qoyurdular və ərə gedirdilər. Vaxtaşırı buradakı ərə gedəcək qadınların adaxlısı məbədin kahinlərindən nişanlısının ozünü necə aparması barədə məlumat alırdı. Ən çox əcnəbinin ziyarət etdiyi qadın ermənilərdə ən arzulanan gəlin hesab olunurdu.

Bəli, gördüyünüz kimi, həqiqətdən də tarixdə fahişəliyin, geyliyin və lezbiyanlığın əsası Anahid məbədində qoyulub və bu qədim peşənin gerçək varisi haylardır. Məsələ burasındadır ki, ermənilərin "Böyük Ermənistan" ideyası və s. xülya olsa da, onların özlərindən yeganə uydurmaqdıqları məsələ ilk fahişələrin, geyliyin və lezbiyanların haylar olmasıdır.

***İradə SARIYEVA***

# Birgə Azərbaycan-Çin istehsalı olan kombilərin bazarı açılır...

**Xəbər verildiyi kimi, avqustun 21-də Abşeron rayonu ərazisində dövlət dəstəyi, yerli və Çin investisiyası əsasında kombi istehsalı zavodu fəaliyyətə başlayıb. Məlumat üçün bildirək ki, "Elektrogas" MMC-yə məxsus Azərbaycan-Çin müştərək müəssisəsi olan zavodun illik istehsal gücü 120 min ədəd kombi təşkil edir. Hazırda zavodda 30 nəfər işlə təmin olunub.**



## *Rəşad Həsənov: "Kombi istehsalı və onun satışının artması üçün ilk növbədə keyfiyyətə xüsusi diqqət yetirmək lazımdır"*

Gələcəkdə isə zavodda 200-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Zavodun yaradılmasına 2 milyon manat investisiya qoyulub ki, bunun da yarısı xarici sərmayələrdir. Gələcəkdə zavoda yatırılacaq sərmayələrin həcmi 11 milyon manata çatdırılacaq. Bu zavodun istehsal profilinin daha da genişləndirilməsinə imkan verəcəkdir.

Qeyd edək ki, zavodda istehsal olunan məhsullar daxili tələbi ödəməklə yanaşı, həm də gələcəkdə "Made in Azerbaijan" brendi ilə xarici ölkələrə ixrac ediləcək.

Danılmaz faktdır ki, kombiyə tələbat yüksəkdir. Belə bir məhsulun ölkəmizdə istehsal olunması və gələcəkdə onun xarici ölkələrə ixrac olunması qeyri-neft sektorunun inkişaf etməsinə səbəb olacaq.

İqtisadçı ekspert Rəşad Həsənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kombinin ölkəmizdə istehsal olunması yerli tələbatı ödəməklə yanaşı, ixrac olunması xaricə valyuta axınının qarşısını alacaq: "Bu iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyətli məsələdir. Çünki bu zavod sayəsində yaradılacaq iş yerlərinin sayı artacaq. Təbii ki, bu amil iqtisadiyyata müsbət təsir göstərəcək".

Həmsöhbətimizin sözlərinə görə, kombi istehsalı və onun satışının artması üçün ilk növbədə keyfiyyətə xüsusi diqqət yetirmək lazımdır: "Məlumdur ki, adıçəkilən məhsulun istehsalı və satışı ilə bağlı bazarda ciddi rəqabət var. Xüsusilə də region ölkələri, Türkiyə daxil olmaqla, bu istiqamətdə uzunmüddətli ixtisaslaşıblar. Danılmaz faktdır ki, Çin təmayüllü məhsullar dünya bazarında istehsalçılar tərəfindən şübhə ilə qarşılanır.

*"Kombinin ölkəmizdə istehsal olunması yerli tələbatı ödəməklə yanaşı, ixrac olunması xaricə valyuta axınının qarşısını alacaq"*

Bu səbəbdən də Azərbaycanda istehsal olunacaq kombi yerli istehsalçının rəğbətinin qazanmalıdır ki, məhsul brend kimi tanına bilsin".

İqtisadçı onu da əlavə etdi ki, "Elektrogas" MMC-yə məxsus Azərbaycan-Çin müştərək müəssisəsi olan zavodun istehsal etdiyi kombi daxili bazarı təmin etməklə yanaşı, qonşu ölkələrə də ixrac olunacaq. Məlumdur ki, Azərbaycan bazarı nisbətən iri investisiyalı istehsal istiqamətləri üçün kiçik hesab olunub: "İxrac potensialının düzgün qiymətləndirilməsi, ixracın həyatın keçirilməsi biznes layihələrinin dayanıqlılığı baxımından əsas məqamlardan biridir. İxracın müsbət tərəfləri ondan ibarətdir ki, qeyri-neft mənşəli məhsulların ixracı hesabına ölkəyə daxil olacaq valyutanın həcminin artmasına səbəb olacaq. Bu amil ölkədə valyuta sabitliyinin qorunmasına səbəb olacaq".

***Günel CƏLİLOVA***

# Azərbaycanda gön-dəri sənayesi ölü nöqtədən niyə hərəkətə gələ bilmir...

**Azərbaycanda yüngül sənayenin tarixi qədimdir.Yüngül sənayenin ən iri qollarından biri də xəz-dəri, gön-dəri istehsalıdır. Bu sahə xarici ölkələrdə mühüm potensiala malik gəlirli sahə hesab olunur. İnkişaf etmiş ölkələrdə gön-dəri istehsalı iqtisadiyyatın ən gəlirli sahəsi hesab olunur.**



## *Vahid Məhərrəmov: "Başlıca problem Azərbaycanda bazarın kiçik olması ilə bağlıdır"*

Azərbaycanda gön-dəri istehsalı üçün böyük potensial var. Ancaq bu sahə hələ də ölkədə normal səviyyədə inkişaf etməyib. Bir neçə il bundan əvvəl dəri məmulatlarının ixrac gömrük rüsumu artırıldı. Belə ki, hər ton üçün 500 dollar gömrük rüsumu müəyyən edildi. Məqsəd o idi ki, ölkədə gön-dəri istehsalı daha da genişlənsin. Yəni gön-dərinin ölkə daxilində emalına xüsusi diqqət yetirilsin. O vaxt xam dəri məmulatlarını ixrac rüsumuna cəlb etməklə dərilərin ölkədə aşılanmasını təşviq etməyə və yerli emal müəssisələri yaratmağa səy göstərilirdi. Ancaq nədənsə, sözügedən qərar bu sahənin inkişafına gətirib çıxarmadı. Əksinə, bu sahə daha da gerilədi. Baxmayaraq ki, xammal bazasının yaradılması, mütəxəssislərin yetişdirilməsi, xüsusilə MDB ölkələrində bazarların tapılması ilə yerli istehsalı ciddi şəkildə inkişaf etdirmək mümkündür. Bunun üçün yeni avadanlıqlar, istehsal sahələrinin qurulması lazımdır. Ancaq hələ ki, bu istiqamətdə inkişaf meyilləri özünü göstərmir.

Maraqlıdır, Azərbaycanda gön-dəri sənayesi niyə yerində sayır? Məlum qərar niyə bu sahənin inkişafına təkan vermədi?

Məsələyə münasibət bildirən kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Vahid Məhərrəmov bunu bir sıra amillərlə əlaqələndirdi: "Gön-dərinin emalı ilə yanaşı, əldə olunan xammaldan nə məqsədlə istifadə etmək qərarı da verilməlidir. Təkcə dərinin ölkə daxilində emal edilməsi ilə iş bitmir. Bu gün dəri məmulatlarının istehsalı bazardakı tələbdən asılıdır. Bazarda bəlli tələb var, amma problem ondadır ki, Azərbaycanın bazarı kiçikdir. Ona görə də tək ölkə bazarı üçün ayrıca dəri emalı müəssisəsi tikmək gəlirli olmaz. Gərək bizdə yüksək keyfiyyətli gön-dəri məhsulu istehsal olunsun və bu təkcə daxili bazarda deyil, xarici bazarda da öz alıcısını tapsın. Belə olacağı halda, bu sahə Azərbaycanda inkişaf edə bilər.

*"Gərək bizdə yüksək keyfiyyətli gön-dəri məhsulu istehsal olunsun və bu təkcə daxili bazarda deyil, xarici bazarda da öz alıcısını tapsın"*

Azərbaycanda heyvanların sayı çox olsa da il ərzində nə qədər ölkədə dəri istehsal olunması nəzərə alınmalıdır. Ölkədə heyvan dərisinin heç də hamısı emala yönəldilmir. Çünki qiyməti aşağıdır. Bu gün Türkiyədə, Çində gön-dəri sənayesi güclü inkişaf edib. Bu ölkələrdə dəri ilə bağlı resursları çox zəngindir. Ən başlıcası bu ölkələrdə məhsulun maya dəyəri ucuz başa gəlir. Belə bir rəqabət mühitində yerli istehsalı qurmaq çox ciddi dəstək tələb edir. Ona görə də hökumət bu haqda ciddi düşünməli və əhatəli proqram qəbul edilməlidir. Sahibkarlar görsə ki, bu sahə sərfəli və gəlirlidir, o zaman bu işlə məşğul olacaq. Başlıca problem Azərbaycanda bazarın kiçik olması ilə bağlıdır. Xarici bazara daxil olmaq isə indiki şəraitdə çox çətindir".

***Vidadi ORDAHALLI***

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayının gələn il keçiriləcəyi barədə Birlik tərəfindən rəsmi məlumatlar yayıldıqdan sonra gündəmə Birlik sədrliyinə potensial namizəd kimi bir neçə ünlü yazarın adı gətirilib. AYB üzvlərinin xeyli bir qismi hesab edir ki, xalq yazıçısı Anar gələn il keçiriləcək qurultayda sədrliyə namizədliyini verməyəcək.**

# Yazıçılar Birliyində sədr məsələsi hələ çox "su aparana" oxşayır - Elçin Əfəndiyevin də imkanları dəyərləndirilir




***İlqar Fəhmi:*** *"Yazıçılar Birliyinin sədrinin kim olacağı ilə bağlı fikir yürütmək, kimlərinsə gələcək sədr kimi adlarını hallandırmaq hələ tezdir"*

***Rəşad Məcid:*** *"İndidən kimlərinsə Yazıçılar Birliyi sədrliyinə namizəd kimi adlarının çəkilməsinə ehtiyac yoxdur"*

***Əsəd Cahangir:*** *"Əlbəttə, Elçin müəllim kimi nüfuzlu qələm adamının Yazıçılar Birliyinin sədri olması Yazıçılar Birliyinin də, Birlik üzvlərinin də yalnız xeyrinə ola bilər"*

Ədəbi ictimaiyyətdə yayılan söz-söhbətlərə görə, hazırda Birlik sədrliyinə real namizəd görkəmli yazıçı-dramaturq, xalq yazıçısı Elçin Əfəndiyevdir. E.Əfəndiyevin AYB sədri postuna seçilməsinin Birlik üzvlərinin bir çoxunun, xüsusən də gənc nəslin maraq dairəsində olduğu bildirilir. Yazıçı və şairlər hesab edirlər ki, Yazıçılar Birliyində mövcud olan problemlərini yalnız E.Əfəndiyev həll edə bilər. E.Əfəndiyevdən əlavə də bəzi şəxslərin adları namizəd kimi hallandırılır. Bir müddət əvvəl xalq yazıçısı fəxri adı alan Azərbaycan Tərcümə Mərkəzinin rəhbəri Afaq Məsudun və yazıçı İlqar Fəhminin də Birlik sədri olması ehtimalı olduğunu deyənlər var.

Bununla belə, bir qisim yazıçı və şairlər hesab edir ki, Elçinin sədr olmasını arzu edənlər daha çoxdur. Hazırda Birlik üzvləri arasında AYB sədrliyinə namizədlərlə bağlı qızğın müzakirələr getsə də, bu barədə mətbuata hər hansı fikir bildirmək istəyənlər, demək olar ki, barmaqla sayılacaq qədərdir.

Azərbaycan Yazıçılar Birliyi sədri postuna xalq yazıçısı Elçin gələ bilərmi? Onun bu məsələdə potensial imkanları nə dərəcədədir?

Yazıçı İlqar Fəhmi bizimlə söhbətində bildirdi ki, kimin sədr olacağını qurultay həll edəcək:"Yazıçıların Birlik sədrliyinə kimlərinsə namizədliyini müzakirə etməsi öz işləridir. Yazıçılar Birliyinin sədrinin kim olacağı ilə bağlı fikir yürütmək, kimlərinsə gələcək sədr kimi adlarını hallandırmaq hələ tezdir. Çünki hələ qurultaya yarım ildən çox vaxt qalıb, bütün bu məsələlər də qurultayda öz həllini tapacaq".

"Bəzi yazarlar Sizin də Birliyin qurultayında sədr postuna namizədliyinizi verəcəyinizi deyirlər. Bu nə dərəcədə doğrudur, belə bir fikriniz varmı"-sualına İ.Fəhmi belə cavab verdi:"Mənim belə bir fikrim yoxdur. Bu saat o qədər işim var ki".

Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid də qeyd etdi ki, Elçinin və digərilərinin sədrlik postuna namizədliyini verəcəyi haqqında məlumatı yoxdur. "Yazıçılar Birliyinin sədrinin dediyinə görə, qurultay gələn il olacaq. Ona görə də, indidən kimlərinsə Yazıçılar Birliyi sədrliyinə namizəd kimi adlarının çəkilməsinə ehtiyac yoxdur. İnişallah, yazıçılar qurultayda öz ağıllı, düzgün qərarlarını verərlər. Anar müəllim müsahibəsində deyib ki, yenidən Birlik sədrliyinə namizədliyini verəcək"-deyə R.Məcid qeyd etdi.

Tanınmış ədəbiyyat tənqidçisi Əsəd Cahangir isə hesab edir ki, xalq yazıçısı Elçinin Birlik sədrliyinə namizədliyini verib-verməyəcəyini bilmir, ancaq onun şəxsi fikrinə görə, xalq yazıçısı Anar sədrliyə namizədliyini verməsə AYB-yə görkəmli yazıçı Elçinin sədr olması daha məqsədəuyğun olardı. "Olduqca mürəkkəb bir mövzuya toxunmusunuz. Ona görə də Yazıçılar Birliyinin sədri AYB üzvlərinin səsverməsi ilə müəyyən edilir. Bu barədə dəqiq proqnoz vermək çox çətindir. Çünki Yazıçılar Birliyinin 1700 nəfər üzvü var və onların da çoxu heç bir-birini tanımır. Hamının fikrini bilmək və bəri başdan proqnoz vermək çox çətindir. Bu məsələdə dəqiq fikir söyləmək asan deyil. Mən yalnız öz fərdi fikrimi deyə bilərəm. Elçin Azərbaycan ədəbiyyatının görkəmli simalarından biridir.

O, xüsusilə də müstəqillik dövründəki yaradıcılığı ilə bir daha sübut etdi ki, ədəbiyyatımızın bayraqdarıdır. Elçin dram, ədəbi tənqid, romançılıq, hekayəçilik sahəsində nəinki Sovet dövründəki məhsuldarlığını, öndərliyini qoruyub saxladı, hətta əvvəlkindən də məhsuldar, səmərəli şəkildə fəaliyyətini davam etdirdi. Yəni Elçin müəllim olan yerdə yaş kateqoriyası o qədər də önəmli deyil. Çünki o, gənclik, cavanlıq həvəsi ilə yazır, yaradır və hamını tanıyır, nüfuzlu adamdır. Elçinin həm Yazıçlar Birliyi üzvləri arasında, həm də yuxarı dairələrdə hörməti, nüfuzu var, ağsaqqal adamdır. Əlbəttə, Elçin müəllim kimi nüfuzlu qələm adamının Yazıçılar Birliyinin sədri olması Yazıçılar Birliyinin də, Birlik üzvlərinin də yalnız xeyrinə ola bilər. Anar müəllim kimi nüfuzlu bir adamdan sonra, əlbəttə, Birlik sədri digər nüfuzlu bir şəxs olmalıdır. AYB sədrliyinə radikal dərəcədə fərqli bir şəxs gəlsə, bəlkə də bu o qədər də yaxşı qarşılanmaz. Ancaq mənə elə gəlir ki, Elçin müəllimin Birlik sədri olması ictimaiyyət tərəfindən tamamilə normal qarşılanar. Elçin müəllimin bir cəhəti də şəxsən mənim üçün təqdirəlayiqdir ki, o həmişə yenilikləri görür, qiymətləndirir. Yəni istedadlara qiymət verir, ədəbi prosesi çox diqqətlə izləyir, kimin kim olduğunu bilir, hər kəsə də özünə layiq şəkildə davranır. Ona görə də, hesab edirəm ki, Elçin müəllim barədə burada ikinci bir fikir ola bilməz. Əlbəttə, yenə deyirəm ki, bu yalnız mənim fərdi fikrimdir. Son nəticəni isə səsvermə həll edəcək"-deyə Ə.Cahangir bildirdi.

**Qeyd edək ki, gənclərin böyük əksəriyyəti E. Əfəndiyevin sədr olmasını arzulayır və onlar qeyd edirlər ki, E.Əfəndiyev sədrliyə namizədliyini verərsə ona səs verəcəklər. Bu fikrə də münasibət bildirən Ə.Cahangir "əgər Anar müəllim gedərsə və Elçin müəllim öz namizədliyini irəli sürərsə, əlbəttə, mən də Elçin müəllimin namizədliyini dəstəkləyənlər sırasında olacağam. Yenə də deyirəm, o, nüfuzlu və obyektiv şəxsdir. Yarım əsrdən artıq yaradıcılıq təcrübəsi olan bir adamın Yazıçılar Birliyinin sədri postunda əyləşməsi ancaq ədəbiyyatımızın da, cəmiyyətimizin də, Yazıçılar Birliyinin üzvlərinin də xeyrinə olacaq"-deyə o bildirdi.**

***İradə SARIYEVA***

# Azərbaycan Rusiya ilə birgə turizmin inkişafında yeni mərhələ açır...

**Azərbaycan Dövlət Turizm Agentliyi ortaq turizm layihələrinin həyata keçirilməsi ilə bağlı rusiyalı tərəfdaşlarla danışıqları davam etdirir. Bu barədə mətbuata açıqlamasında Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kənan Quluzadə məlumat verib.**



## *Çingiz İsmayılov: "İki ölkənin birgə turizm layihələri həyata keçirməsinin perspektivi var"*

Onun sözlərinə görə, Tərəflər Şimali Qafqaz istiqamətində birgə pilot layihələr yaratmaq üçün mümkün variantları nəzərdən keçirirlər: "Hazırda tərəflər qarşıdan gələn ilin sonuna qədər başlaya biləcək birgə layihələrin təfərrüatlarını müzakirə edirlər. Hər iki tərəf, xüsusilə bu günə qədər istifadə edilməmiş böyük potensialı nəzərə alaraq turizm sahəsində sıx əməkdaşlıqda maraqlıdır. Layihələr Azərbaycan və Rusiya arasındakı yeni turizmin marşrutların yaradılmasına, həmçinin kurort və sanatoriya istiqamətinin inkişafına yönəlib".

Qeyd etmək lazımdır ki, Azərbaycanda Rusiyanın kurort və sanatoriya sektoruna maraq hər il, xüsusən Şimali Qafqazdakı Mineralnıye Vodı kurortları ilə əlaqəli populyarlığı ilbəil artır. Xüsusilə, Şimali Qafqazda Azərbaycan sərmayələri ilə tikilən bir neçə sanatoriya var, bunlardan biri Essentukidəki müasir "İstoçnik"(Mənbə) sanatoriyasıdır, bu layihəyə qoyulan ümumi sərmayə 1,5 milyard rubl təşkil edib. Bundan əlavə, tərəflər Kislovodskda bir spa kompleksi və Jeleznovodskda bir sanatoriya inşa etmək üçün ortaq bir layihə üzərində işləyirlər. Bu obyektlərin istismara verilməsi 2020-ci ilə planlaşdırılıb.

Bütün bunların fonunda iki ölkə arasımda yaradılması nəzərdə tutulan ortaq turizm layihələrinin perspektivini ekspertlər necə dəyərləndirir?

Məsələyə münasibət bildirən turizm sahəsi üzrə ekspert Çingiz İsmayılovun sözlərinə görə, iki ölkənin birgə turizm layihələri həyata keçirməsinin perspektivi var: "Müxtəlif yollar axtarmaq lazımdır ki, turizm industriyası rərabətə davamlı olsun. Nəinki MDB məkanından, Yaxın Şərqdən, Avropadan turistlər gəlsin. Ancaq bunun üçün ilk növbədə düşünülmüş siyasət aparılmalıdır. Rusiya turistlərini cəlb etmək üçün Azərbaycanın potensialı böyükdür. Ancaq biz servis səviyyəsinə və qiymətlərə görə Gürcüstana uduzuruq. Rusiya turistləri daha çox isti dənizlərə can atır. Bizdə dəniz çirkləndiyi üçün rus turistlər başqa alternativlər seçməli olur. Ancaq Azərbaycanın rus turistlərini cəlb etmək üçün ənənəvi üstünlükləri var. Sözügedən üstünlüklər ondan ibarətdir ki, azərbaycanlılar daha qonaqpərvərdir, milli mətbəximiz daha zəngindir. Ancaq çimərliklərin çirkli olması bu üstünlüklərə mənfi təsir edir. Turistləri cəlb etmək üçün çimərliklər normal vəziyyətə gətirilməlidir. Rusiyanın özündə də bu problemlər var. Hesab edirəm ki, bu məsələlər təhlil olunmalıdır. Qiymətlər münasib, servis səviyyəsi yüksək və çimərliklər təmiz olsa, o zaman Azərbaycan və Rusiya arasındakı yeni turizmin marşrutları daha səmərəli nəticə verəcək".

> *"Qiymətlər münasib, servis səviyyəsi yüksək və çimərliklər təmiz olsa, o zaman..."*

**Vidadi ORDAHALLI**

# Bakıda oğlan tələbələr üçün kirayə mənzil probleminin özəllikləri....

**Sentyabr ayı kirayə mənzil bazarının aktivləşdiyi dövrdür. Yeni tədris ili başladığından, regionlardan paytaxta oxumağa gələn tələbələr kirayə mənzillərdə yerləşməli olurlar. Bu səbəbdən kirayə mənzil bazarında tələbat yüksəlir,qiymət bahalaşır. Hazırda şəhər kirayə elanları ilə olub-daşır.**



## *Tələbə İlkin Məmmədov: "Yaxşı şəraitli evlər ya ailə, ya da qızlara verilir, oğlanlara isə yalnız şəraitsiz evlər təklif olunur"*

## *Aytəkin Kamranqızı: "Tələbələrə mənzil kirayə verilərkən mənzilin oğlan-qız üstündə dayanması əsassızdır"*

Ənənəvi olaraq "yalnız qızlar üçün" başlıqlı elanlarla isə çox qarşılaşırıq. Bu gün bir çox ev sahibləri evini ancaq qızlara, o cümlədən tələbə qızlara kirayə vermək istəyir. Ancaq ev yiyələri mənzillərini oğlnlara vermək istəmir. Əks cinsin nümayəndəsi kirayə mənzil üçün müraciət etsə ona qəti şəkildə "yox" cavabını verirlər.

Mənzil sahiblərinin böyük əksəriyyəti bunun səbəbini qızların daha məsuliyyətli, evə, əşyalara qarşı daha ehtiyatlı, səliqəli davranması ilə əlaqələndirirlər.

Belə olan halda oğlanlar kirayə mənzil tapmaqda çətinlik çəkir. Oğlan tələbələr kirayə mənzil tapmaqda çətinlik çəkdiklərini bildirir. Onlar qeyd edir ki, il-dən-ilə kirayə ev tapmaq çətinləşir: "Beş-on nəfər evi səliqəsiz saxlayır deyə, bu, bütün tələbə oğlanlara aid edilməməlidir. Biz müqavilə bağlamağa belə razıyıq, amma ev sahibləri əsassız olaraq evi yalnız qızlara kirayə verəcəklərini deyirlər. Bəs Azərbaycanda oxuyan əcnəbi oğlanlara niyə kirayə ev verirlər? Çünki bizə 200 manata deyilən evi onlara 400-600 manata verirlər. Onlar da qiymətlərdən xəbərsiz olduqları üçün razılaşırlar".

Kirayə mənzil tapmaqda çətinlik çəkən tələbə İlkin Məmmədov bizimlə söhbətində bildirdi ki, Bakıya ilk gələndə kimə müraciət edirdisə, evini kirayə vermək istəmirdi: "Bizə də ancaq şəraitsiz evlərdə yaşamaq qalırdı. Bütün yaxşı evlər ya ailə, ya da yalnız qız tələbələrə verilirdi. Ona görə qaldığımız bütün evlər demək olar ki, insanlıq üçün təhqir idi. Problemimiz ancaq şəraitsizliklə bağlı olurdu. Həftədə bir dəfə evə usta gəlirdi. Qaz, su xətti və digər bu kimi problemlərlə məşğul olurdu. Amma səliqə-sahman baxımından problem yaranmayıb. Çünki ev sahibi özü də bilirdi ki, verdiyi evi nə qədər səliqəli saxlamağa çalışsaq da, səliqəsiz görünəcək".

Sosioloq Aytəkin Kamranqızı qeyd etdi ki, ev sahiblərinin əksəriyyəti evlərini oğlan tələbələrə etibar etmək istəmir: "Hazırda Bakıda müşahidə edilən ciddi problemlərdə biri də oğlan tələbələrə ev verilməməsidir. Bu, çox vaxt həmin mənzildən istifadənin keyfiyyətsizliyi baxımından baş verir. Çünki qız uşaqları evdən daha səliqəli istifadə edirlər. Oğlanlar isə bu istiqamətdə xeyli çətinliklərlə üzləşirlər. Təbii ki, mentalitet məsələlərinin də rolu böyükdür. Bəzən ailələr öz həyətlərində olan mənzilləri kirayə verir və istəmirlər ki, burada yad adamlar, xüsusilə də oğlan uşaqları yaşasınlar. Bəzi ailələr evdəki bir otağı kirayə verirlər. Bu, daha çox qızlara əlverişli şərait yaradır. Oğlanlar üçün imkanlar məhdudlaşır.

Buna görə də bir sıra proyektlərin həyata keçirilməsinə ehtiyac yaranıb. Belə layihələri həyata keçirərkən oğlan tələbələrin yerləşdirilməsinə fokuslanmaq lazımdır. Bu, onların tərbiyəsi ilə bağlı cəmiyyətdə neqativ halların formalaşmasının da qarşısını alar. Düşünürəm ki, belə olsa, onların təhsilə meyli də artar. Proqramın genişləndirilməsi fonunda növbəti mərhələdə qız uşaqlarının kirayə problemini həll etmək lazımdır".

Sosioloq onu da vurğuladı ki, tələbələrə mənzil kirayə verilərkən mənzilin oğlan-qız üstündə dayanması əsassızdır.

**Günel CƏLİLOVA**

**Məlum olduğu kimi, 2018-ci ilin dekabr ayında Nazirlər Kabineti tərəfindən "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nı təsdiqlənib. Təsdiq olunan qaydalara əsasən qəbiristanlıqlar yerli bələdiyyələrin idarəçiliyinə verilib. Bildirək ki, Bakıda 100-ə yaxın qəbiristanlıq var.**

***Binəqədi Qəsəbə Bələdiyyəsi - Aytac Əliyeva:*** *"Binəqədi Qəsəbə Bələdiyyəsi də qəbir yerlərinin elektron bazasını yaradır"*

***Yasamal Bələdiyyəsi:*** *"Qəbiristanlığın abadlaşdırılması ilə yanaşı informasiya sisteminin formalaşdırılmasına başlayıb"*

***İsmayıl Əhməd:*** *"Qəbiristanlıqlarla bağlı məlumat bazasının yaradılması müsbət haldır"*

# Qəbiristanlıqların elektron bazası yaradılır - hər kəs internet vasitəsilə öz yaxınının məzarı barədə məlumat ala biləcək...



Onlardan sadəcə 32-si Bakı Əhaliyə Vətəndaşlıq Xidməti Trestinə (BƏVXT) tabedir. Məlumatlara görə, artıq 14 qəbiristanlıq bələdiyyələrin balansına verilib. Qalanlarının da bələdiyyələrin balansına verilməsi istiqamətində işlər davam etdirilir.

Təsdiq olunan qaydalardan biri də qəbiristanlıqlarla bağlı məlumat bazasının yaradılmasıdır. Məlumat bazasında məzar daşı, dəfn olunduğu şəhər və yer qeyd ediləcək. Ölən şəxsin yaxınları dünyanın istənilən yerindən həmin sayta daxil olaraq məzarın harada yerləşdiyini öyrənə biləcək. Proqram təminatında nömrələnmiş qəbirlərin kimə aid olduğu haqqında məlumatlar elektron sistemə qeyd ediləcək.

Artıq bəzi qəbiristanlıqların saytı yaradılıb. Bu qayda zamanla bütün qəbiristanlıqlarda tətbiq olunacaq.

Binəqədi Qəsəbə Bələdiyyəsinin sədri Aytac Əliyeva bildirdi ki, qəbiristanlıqlarla bağlı bir sıra yeniliklərə start verilib: "Binəqədi Qəsəbə Bələdiyyəsi də qəbir yerlərinin elektron bazasını yaradır. Bu istiqamətdə aparılan işlərin bir hissəsi yekunlaşıb. Belə ki, qəsəbə ərazisindəki qəbiristanlıqlar bələdiyyənin balansına keçərkən, həmin məzarlıqlarda dəfn edilənlərin arxiv qeydiyyat kitabları da götürülüb. Həmin məlumatların elektron bazası hazırlanıb. Bizim qəsəbə ərazisində qəbiristanlıqlardan ikisi bələdiyyənin balansına verilib. Bunlardan biri 23 hektar ərazisi olan kənd qəbiristanlığı, digəri isə 4 hektar ərazisi olan Keyrəki qəbiristanlığıdır. Amma qəsəbənin ərazisində iki sahibsiz qəbiristanlıq da var. Onlardan biri başqa dinlərə mənsub şəxslərin dəfn edildiyi qəbiristanlıqdır. Digəri isə Keyrəki vulkanının arxa tərəfində yerləşən 2 hektar ərazisi olan qəbiristanlıqdır. Həmin qəbiristanlıq da ərazi hüdudlarına görə əslində Binəqədi Qəsəbə Bələdiyyəsinin ərazisinə düşür".

Qəbiristanlıqları təhvil alan bələdiyyələrdən biri olan Yasamal Bələdiyyəsi qəbiristanlığın abadlaşdırılması ilə yanaşı informasiya sisteminin formalaşdırılmasına başlayıb. Adıçəkilən bələdiyyə tərəfindən qəbiristanlığın saytı da yaradılıb. Bundan sonra qəbirlərinin şəkilləri çəkiləcək və saytda yerləşdiriləcək.

Yasamal Bələdiyyəsindən verilən məlumata görə, avqustun 13-dən etibarən Yasamal qəbiristanlığında qəbirlərin rəqəmlənməsinə başlanılıb: "Yasamal qəbiristanlığı qəbirlərin nömrələnməsi prosesi üçün portallara bölünüb. Bildiyiniz kimi, digər qəbiristanlıqlardan fərqli olaraq, Yasamal qəbiristanlığı paytaxtın ən böyük məzarlıqlarından biridir. 2018-ci il dekabrın 4-də "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" ərazi üzrə bələdiyyələrə həvalə edilib. Qərara əsasən, Yasamal qəbiristanlığında məzarların nömrələnməsi prosesi artıq başlanıb. Məzarlığın bir neçə girişinin olduğunu nəzərə alaraq, avqustun 13-dən etibarən qəbiristanlıq ərazisi doqquz portala ayrılıb. Ümumilikdə daha əvvəldən özünə dəfn üçün yer alan və hasarlanan 231 qəbir yeri (ümumilikdə 1200-dən çox qəbir) nömrələnib. Bu proses bütün qəbirlər nömrələnənə qədər davam edəcək. Nömrələnən qəbirlər haqqında məlumatlar elektron qaydada siyahıya alınacaq. Onu da bildirək ki, bəzi qəbirlər var ki, onlar çox baxımsız haldadır. Üzərindən yazılar belə silinib. Biz həmin qəbirlərin məlumatlarını (ad, soyad, doğum və ölüm tarixləri) bərpa edərək siyahı tərtib edirik. Nömrələnən qəbirlərin yanında vurulan kiçik qara lövhədə portalın nömrəsi, qəbirin nömrəsi, həmin sahədə neçə nəfərin dəfn olunması (ad, soyad, doğum və ölüm tarixləri) və daha neçə dəfn üçün qəbir yerinin mövcud olduğu qeyd ediləcək. Bir portalda birdən 10 minə qədər olan qəbir yerləşdiriləcək. Digər portalda isə 10 mindən 20 minə qədər qəbir yerləşəcək. Bu proses bəzən mərhumlarının harada dəfn olunduğunu unudan insanların da işini asanlaşdıracaq.

Nəzərə almaq lazımdır ki, elə insanlar var ki, ölkədə yaşamır və uzun illər rəhmətə gedən doğmasının məzarını ziyarət edə bilmir, yerini belə unudur. Sistemləşmə bu kimi problemləri həll edəcək. Burada milyonlarla qəbir var. Qarşıya qoyulan işlərin təxminən iki il ərzində yekunlaşmasını planlaşdırırıq".

İlahiyyatçı alim İsmayıl Əhməd bizimlə söhbətində qeyd etdi ki, qəbiristanlıqlarla bağlı məlumat bazasının yaradılması müsbət haldır: "Həmin məlumat bazasında qəbir yerlərinin hansı tərəfdə olması, nömrəsi və ya hansı rayonda olduğu göstəriləcək.

Belə olarsa, müəyyən səbəblərdən uzun müddət yaxınının məzarını ziyarət edən qəbir yerini tapmaqda çətinlik çəkməyəcək. Qəbiristanlığın məlumat bazasına daxil olmaqla rəhmətə gedən şəxsin məzarının hansı tərəfdə olmasını öyrənə biləcək".

***Günel CƏLİLOVA***



# Azərbaycan inkişaf etdikcə Lerikdə problemli kəndlərin sayı artır...

**Respublikamızın hər yerində geniş miqyaslı abadlıq-quruculuq işləri görülür və ən əsası ölkə vətəndaşlarının firavan həyat səviyyəsini təmin etməkdən ötrü sistemli surətdə sosial problemlər öz həllini tapır. İndi dövlət rəhbər əhalinin mənafeyini hər şeydən uca tutur.**

Amma dağ rayonu olan Lerikdə bu deyilənlərin tamam əksinədir. Azərbaycan inkişaf etdikcə, burada problemlər mənğənəsində itib-batan kəndlərin sayı durmadan artır.Halbuki rayon əhalisi öz Prezidentinin siyasi kursunu sidq-ürəkdən dəstəkləyir, vətənini, dövlətini çox sevirlər. Onlar böyük arzularla yaşayır, gün-güzəranlarını halal zəhmətlə qururlar.

Uzun illərdir rayon rəhbərliyi tərəfindən əhalinin mədəni səviyyəsinə, onun rahat yaşamasına fikir verilmir. Burada həlli vacib məsələlər bir deyil, iki deyil. Leriklilərin isə ən çox narahatlığı kəndlərin əksəriyyətində evləri isitməkdən ötrü yanacaq problemidir. Artıq respublika ərazisinin 95 faizinə qaz çəkilib. Həm də ölkə başçısı İlham Əliyev dövlətin öz əhalisinə qayğı siyasətin bariz nümunəsi kimi daim vurğulayır:"Azərbaycanda ucqar rayonlarda, ucqar kəndlərdə yaşayan insanlar təbi qazla təmin olunsun, daha yaxşı yaşasınlar. Ekologiya qorunsun, meşələr qorunsun- bu, insanlara rahatlıq gətirən məsələdir". Fəqət, Lerik ucqar dağ rayonu olsa da, burada vəzifə başında duran səlahiyyət sahibləri Prezidentin görmək istədiyi vacib işlərə ən azı əngəl olurlar. Məhz buna görə də indi Lerikin heç 30 faizində təbii qaz yoxdur. Bu səbəbdən insanlar soyuq günlərdə evləri qızdırmaq üçün min- bir əziyyətə düçar olurlar. Yalanları ilə püxtələşmiş rayon rəhbərləri dövləti aldatmaqla leriklilərin qaza həsrətini ilbəil uzadırlar.

Lerik rayonunda Yuxarı Anburdərə adında bir kənd var. Kənddə yurd-yuva quranlar olduqca sadə, səmimi, zəhməti sevən, dövlətinə bağli insanlardır. Artıq onlarda payızın soyuq havası, qışın şaxtası hövsələdən çıxardıb. Kənd sakini Arif Qurbanov deyir: "İndiki dinc həyatımıza görə ölkə rəhbərinə çox minnətdarıq. Prezidentimiz Azərbaycan vətəndaşların hər bir qayğısına qalır. Dünyanın heç bir ölkəsində xalqa onun kimi ürəkdən bağlı olan bir siyasi rəhbər yoxdur. Təəssüf ki, onun gözəl işlərinə xələl gətirənlər tapılır... Qarşıdan şaxtalı qış gəlir. Soyuq otaqlarda donmaq təhlükəsi bizi gözləyir. Hazırda rayonun çox kəndində qışın soyuğundan yaxa qaytarmaq müşkül məsələdir. Bizim dağ kəndi də belə. Əvvəllər odunla keçinərdik. İndi meşələr üzümüzə bağlanıb, alınan yanacaq odunun qiyməti qızıldan bahadır. Kəndin təbii qazla təchizatı barədə verilən vədlər rayon rəhbərləri tərəfindən camaatı ələ salmaqdan başqa bir şey deyil. Bu səbəbdən gələn qışda sağ qalmağa inam yoxdur. Ümidimiz yalnız ölkə rəhbərinədir".

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

№ 149 (4047) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

27 AVQUST 2019-cu il

www.baki-xeber.com


## "Azercell" "Rәqәmsal Dünya Bölgәlәrdә" layihәsi çәrçivәsindәuşaqları vә mәcburi köçkünlәri sevindirdi

**"Azercell Telekom" "Rәqәmsal Dünya Bölgәlәrdә" şüarı altında iyul ayından başlayaraq ölkәnin şәhәr bә rayonlarında hәyata keçirdiyi layihәnin son tәdibirini avqust ayının 26-da qәdim Gәncәdә tәşkil etmәyә qәrar verdi.**

Daima sosialyönümlü layihәlәrә dәstәk olan şirkәt Gәncә sәfәri zamanı Heydәr Əliyev Fondunun tәşәbbüsü ilә yaradılan "Regional İnkişaf" İctimai Birliyi ilә birgә burada yerlәşәn Gәncә uşaq evinin sakinlәri ilә görüşüb. Uşaq evindә mәskunlaşan 70 uşağa müxtәlif mәktәb lәvazimatlarının olduğu çantalar hәdiyyә edilib.

Ölkәnin lider mobil operatoru "Azercell Telekom", hәm dә öz fәaliyyәtindә insanların hәyat sәviyyәsinin yüksәldilmәsinә istiqamәtlәnmiş onlarla sosial layihәnin tәşәbbüskarı olub ki,bu layihәlәr sırasında "Mobil Göz Klinikası" vә "Mobil Diş Klinikası" xüsusi yer tutur. Fәaliyyәt göstәrdiklәri müddәt әrzindә bu sәyyar klinikalar yalnız Bakıda deyil, hәm dә regionlarda valideyn himayәsindәn mәhrum uşaqları, qocaları, aztәminatlı ailәlәri, mәcburi köçkünlәri müayinә vә müalicә edib.

Bu dәfәki sәfәrә qoşulan "Mobil Göz" vә "Mobil Diş" klinikaları Gәncәdә yerlәşәn SOS Uşaq kәndindә 70-dәnçox uşağı müayinәdәn keçirib. Müayinә vә ilkin müalicә tәdbirlәrindәn sonra uşaqlarahәdiyyәlәr tәqdim edilib.

Sәfәrin davamında "Azercell Telekom" vә "Regional İnkişaf" İctimai Birliyinin nümayәndә heyәti Gәncә Qaçqın qәsәbәsi, Gәncә Dәmiryol yataqxanası, Neft bazası, Asfalt zavodunun inzibati binasında mәskunlaşan Xocalı, Ağdam, Kәlbәcәr, Laçın vә Şuşadan olan qaçqın vә mәcburi köçkün ailәlәrilә görüşüb. Görüş zamanı 800 ailәyә şirkәt tәrәfindәn müxtәlif mәişәt avadanlıqları hәdiyyә edilib.

Yüksәk texnologiyaların yaratdığı geniş imkanları tәqdim edәn "Rәqәmsal Dünya Bölgәlәrdә" layihәsi çәrçivәsindә mәcburi köçkünlәrin qәsәbәsindә keçirilәn tәdbirdә müxtәlifinnovativ oyunlar, interaktiv әylәncәlәr yer alıb. Tәşkil edilәn müsabiqә vә oyunların iştirakçılarına "Azercell" tәrәfindәn müxtәlif hәdiyyәlәr verilib. Bu tәdbirlәrә müvafiq İcra Hakimiyyәtlәrinin rәhbәrliyi vә nümayәndәlәri dә qatılıb.

Bu gün axşam isә Gәncә şәhәrindә hәyata keçirilәn sosial tәşәbbüslәrdәn sonra şәhәrin sakinlәri vә qonaqları "Azercell"in tәşkil etdiyi rәngarәng әylәncәli proqramdan zövq almaq imkanı qazanacaq.

Əsas hәdәfi fәaliyyәt göstәrdiyi sahәdә meydana gәlәn tendensiya vә trendlәri hamı üçün әlçatan etmәk olan Azercell iyul ayının 30-dan etibarәn Naxçıvan, Ordubad, Şәrur, Quba, Qusar, Xaçmaz, Sumqayıt, İsmayıllı, Şamaxı, Qәbәlә, Göyçay, Şәki, Zaqatala, Bәrdә, Cocuq Mәrcanlı kәndindә, Mingәçevir, Yevlax, Lәnkәran, Qazax, Tovuz, Şәmkir bölgәlәrindә "Rәqәmsal Dünyanı Yarat" layihәsi çәrçivәsindә keçirilәn tәdbirlәrdә 100 mindәn çox insanı bir araya toplayıb.

4G şәbәkәsini güclәndirәn vә genişlәndirәn "Azercell", son yarım ildә ölkәdә telekommunikasiya sahәsinin inkişafına 63 milyon manatdan artıq vәsait yatırıb. Bu müddәt әrzindә şirkәt әhali әhatәsi dairәsindә 86.2%, coğrafi әrazi әhatә dairәsindә isә 61.4% yüksәlişә, hәmçinin günlük LTE data istifadәsindә 49.6%, LTE yüklәmә vә ötürmә sürәtindә isә 16%-dәk artımanail olub. Bakı vә Abşeron da daxil olmaqla, ölkәnin 60-a yaxın bölgәsi 4G şәbәkәsinin әhatә dairәsindәdir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## "Nar+" ilә hesabınızı daha asan idarә edin!

**Abunәçilәrin istifadәçi tәcrübәsini davamlı olaraq tәkmillәşdirmәyi özünә hәdәf qoyan "Nar", yeni mobil tәtbiqini istifadәçilәrin ixtiyarına verib (mәtbuat nümayәndәlәrinin iştirakı ilә keçirilәn tәdbirdә tәqdim edib). "Nar+" tәtbiqi hesabı daha asan idarә etmәk, nömrәni hәr zaman nәzarәt altında saxlamaq, bütün xidmәt vә mәhsullardan xәbәrdar olmaq imkanı verir.**




Yeni tәtbiqvasitәsilә abunәçilәr artıq bir neçә saniyә әrzindәtariflәr haqqında mәlumat әldә edib, özlәrinә әn uyğun tarifә qoşula, mövcud tarifi dәyişә, yeni internet paketi sifariş edә, bonusları yoxlaya vә yenilәyә bilәrlәr.Bundan başqa, tәtbiq kredit vә balans sorğularını icra etmәyә, rominq paketlәri barәdә dә mәlumat alıb bir kliklә xidmәti aktivlәşdirmәyә imkan verir.

"Müştәriyönümlü strategiyamızın növbәti mәrhәlәsi olaraq "Nar+" mobil tәtbiqini abunәçilәrimizә tәqdim etmәkdәn böyük mәmnunluq duyuruq. Müştәrilәrimizә rәqәmsal formatda vә real rejimdә şәxsi hesablarına nәzarәt etmәk imkanı verәcәk bu tәtbiq istifadәçi tәcrübәsini növbәti mәrhәlәyә daşıyacaq, onların gündәlik hәyatlarına rahatlıq vә çeviklik gәtirәcәk. Nar olaraq tәqdim etdiyimiz telekommunikasiya xidmәtlәrini hәr zaman müştәrilәrimizin ehtiyaclarını nәzәrә alaraq formalaşdırırıq. Mәqsәdimiz müştәrilәrimizin etibarlı tәrәfdaşı olmaqdır.", - deyә "Nar"ın kommersiya üzrә direktoru Qәhrәman Kazımov bildirib.

"Nar+" tәtbiqi sәrfiyyat haqqında izahlı qaimәni dәrhal vә şәffaf şәkildә әldә etmәyә dә imkan verir. Belә ki, "istifadә tarixçәsi" bölmәsindә detallı şәkildә hәr bir xidmәtә görә sәrfiyyat vә uyğun olaraq çıxılan mәblәğ qeyd edilir. Bu vә digәr funksional bölmәlәr lazımi bütün informasiyanı vermәklә, müştәri xidmәtlәrinә zәng etmәk ehtiyacını minimuma endirir vә abunәçilәrin vaxtına qәnaәt etmiş olur. Hәr hansı bir sual yarandığı tәqdirdә isә onlayn çat vasitәsilә kömәk tәqdim olunur.

Qeyd edәk ki, "Nar+" tәtbiqini AppStore vә PlayStore-dan yüklәyә bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,5 %-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7900-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәkkeyfiyyәtli xidmәt göstәrir.




**Qoç** - Hadisәlәrin axarını dәyişmәk üçün cәhd göstәrmәsәniz, gününüz cansıxıcı, maraqsız vә boş keçәcәk. Hәyatınıza müxtәliflik qatmaq şanslarınız var, bunun üçün bir qәdәr fantaziya vә aktivlik tәlәb olunur.


**Buğa** - Gәrgin vә yorucu gündür. Xeyli qayğılarınız vә hәyәcanlanmaq üçün sәbәblәriniz peyda olacaq. Müxtәlif problemlәri hәll etmәli, başqalarının etdiklәri sәhvlәri düzәltmәli, әslindә, biganә olduğunuz insanlar üçün dәridәn-qabıqdan çıxmalı olacaqsınız.


**Əkizlәr** - Uğurlu gündür, xeyli yaxşı imkanlarınız yaranacaq. Sizdәn tәlәb olunan - taleyin hәdiyyәlәrindәn yararlanmaqdır. İstәnilәn yeni layihәnin gerçәklәşdirilmәsinә başlaya bilәrsiniz.


**Xәrçәng** - Lap azacıq sәy göstәrsәniz, möhtәşәm nailiyyәtlәr qazana bilәrsiniz. Əlinizә düşәn fürsәtdәn son zamanlar fikirlәrinizi mәşğul edәn ideyanı gerçәklәşdirmәk üçün istifadә edin.


**Şir** - Gün istәdiyiniz kimi yaxşı alınmır. Bәzi Şirlәrin ümidlәri alt-üst olacaq, bәzilәri isә taleyin oyunlarına әmәlli-başlı hirslәnәcәklәr. Hәr şeyi düzәltmәk şansınız var: bunun üçün şәrait vә nәzarәti әlә almaq lazımdır.


**Qız** - Dünәnki kimi yaxşı gün deyil, amma bir qәdәr ağlınızı işә salsanız, bu da pis keçmәyәcәk. İntuisiyanıza güvәnin, eksperimentlәrdәn çәkinmәyin. Hәyatınızda çox yeni vә hәrtәrәfli gözәl bir dәyişiklik edә bilәrsiniz - buna azacıq cәhd edin.


**Tәrәzi** - Bәxtiniz gәtirmir. Gününüz uğursuz başlayır. Amma nikbin olanlar neqativ tendensiyalarıın tәsirindәn qurtula vә günün birmәnalı olmayan hadisәlәrindәn öz xeyirlәrinә istifadә edә bilirlәr.


**Əqrәb** - Hadisәlәrin lәngliyi sizi әsәblәşdirir, hәrәkәt etmәk әvәzinә, tez-tez gözlәmәli olursunuz. Özünüz dә tәlәsir, başqalarını da tәlәsdirirsiniz, bu zaman sәhvlәrinizi görmürsünüz.


**Oxatan** - Uğurlu gündür. Xeyli sevincli anlar yaşayacaqsınız. Yaxşılığa doğru dәyişikliklәri görmәk çәtin deyil. İstәnilәn yeni layihәnin gerçәklәşdirilmәsinә başlamaq olar. Əgәr hәqiqi, ciddi münasibәtlәr arzusundasınızsa, fәaliyyәtә keçin.


**Oğlaq** - İstәnilәn yeni layihәniz uğurlu olacaq. Bu gün çevik olmaq, tәnbәllik etmәmәk lazımdır. Əgәr ilk cәhddәn heç nә alınmırsa, qarşınıza qoyduğunuz mәqsәddәn çәkinmәyin. İnadınız vә ağlınız sayәsindә bu gün möhtәşәm nәticәlәr әldә edә bilәrsiniz.


**Dolça** - Hәyatınızda vacib rol oynayacaq bir qәrar vermәlisiniz. Mәsuliyyәti başqasının boynuna qoymayın vә vaxtı da uzatmağa çalışmayın: vacib sualları vaxtında, gecikmәdәn, dәrhal vә qәti cavablandırmaq lazımdır.


**Balıqlar** - Hadisәlәri sakit qәbul etmәyә çalışın. Əgәr özünüz axtarmasanız, heç bir çәtinliyiniz olmayacaq. Günün ikinci yarısı mürәkkәb bir şәraitә düşә bilәrsiniz, amma burada yaxın adamınız kömәyinizә gәlәcәk, rahat nәfәs ala bilәcәksiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Elan

Mәmmәdcәfәrov Azәr Qәlәndәr oğluna Daşkәsәn ŞHK tәrәfindәn verilmiş Müharibә Veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Axundova Nigar Vәli qızına mәxsus Bakı şәhәri, Sabunçu rayonu, Nardaran qәsәbәsi, Nardaran - Lәhiş yolu 300-cü metrin sağ tәrәfi № 32 "A" (94.4 kv.m "A" tikilişi III mәrtәbә) Çıxarışı itdiyi üçün etibarsız sayılır.

Axundov Qabil Cәfәr oğluna Gәncә şәhәr Nizami RHK tәrәfindәn verilmiş m/v 058475 müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Rövşәn Yavәr oğluna aid, Bakı şәhәri Novxanı bağlar massivindә yerlәşәn 1042 f saylı bağın № 38273 müqavilәsi itdiyi üçün etibarsız sayılır.

## "Bakcell"dәn yenilәnmiş "Ulduzum" mobil tәtbiqetmәsi: eksklüziv endirim vә güzәştlәrә çıxış imkanı

**Azәrbaycanın ilk mobil operatoru vә әn sürәtli mobil internet provayderi "Bakcell" şirkәti "Ulduzum" mobil tәtbiqetmәsini yenilәyib.**

"Ulduzum"uyüklәmiş Bakcell abunәçilәri bu proqramın tәrәfdaşlarını asanlıqla tapıb, endirim kodlarını әldә edә, mövcud tәkliflәr vә yeniliklәr barәdә mәlumat ala bilәrlәr. Hәmçinin, yeni tәtbiqetmә sayәsindә istifadәçilәr qәnaәt olunmuşmәblәğlәr, qoşulduqları kampaniyalar, qazanılan "keşbeklәr", gün әrzindә istifadә edilmәyәn kodlar vә digәr üstünlüklәr barәdә mәlumat ala bilәcәklәr. Yeni tәtbiqetmә hәmçinin müxtәlifoyunlarda iştirak etmәk vә hәdiyyә qazanmaq imkanı verir.

Yenilәnmiş "Ulduzum" mobil tәtbiqetmәsini Android vә iOS sistemlәri ilә çalışan cihazlar üçün aşağıdakı linklәrdәn yüklәmәk olar:
https://apple.co/32yW5j5
http://bit.ly/UlduzumApp

"Bakcell" şirkәti ölkәnin әn genişmiqyaslı loyallıq proqramını hәyata keçirmәklә öz abunәçilәrini eksklüziv endirimlәr vә güzәştlәrlә tәmin edir.Artıq 5 ildәn çoxdur ki, Azәrbaycanda әn uğurlu loyallıq proqramlarından biri hesab olunan "Ulduzum"un geniş partnyor şәbәkәsi 300-dәn çox yerli vә beynәlxalq tәrәfdaşın 500-dәn artıq satış vә xidmәt nöqtәsini özündә birlәşdirir.

Bu günә kimi "Ulduzum" loyallıq proqramına 3 milyondan artıq Bakcell abunәçisi qoşulub. Proqramın istifadәçilәri populyar restoran vә otellәr, nüfuzlu geyim, parfümeriya vә elektronika mağazaları ilә yanaşı, sağlamlıq, idman vә әylәncә mәrkәzlәri, әn populyar kinoteatrlar, banklar, kitab dükanları, kabel televiziya provayderlәri vә digәr sahәlәrdә fәaliyyәt göstәrәn tәrәfdaşlarımızın tәklif etdiyi özәl kampaniyalar vә endirimlәrdәn yararlanmaq imkanına malikdirlәr.

Proqram haqqında әtraflı mәlumatı www.ulduzum.az sәhifәsindәn almaq mümkündür.

*Hazırladı: Ramil QULİYEV*


**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.